**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**TELLİ VAQİF qızı MƏMMƏDLİ**

# İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ NAİLİYYƏTLƏRİNİN YOXLANILMASI VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

HSM – 060103 – İngilis dilinin tədrisi metodikası və metodologiyası

**Magistr elmi dərəcəsi almaq üçün təqdim edilmiş**

**D İ S S E R T A S İ Y A**

**Elmi rəhbər: ________________**

*Əmralı Şirəli oğlu Şirəliyev*

*ped.f.d., dosent*

**BAKI – 2017**

# MÜNDƏRİCAT


**GİRİŞ**…........................................................................................ 3-8

**I FƏSİL. İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ NAİLİYYƏTLƏRİNİN YOXLANILMASI**…........................................................... 9-28

*1.1. Xarici dil üzrə təhsilin nəticələrinin yoxlanılmasına və qiymətləndirilməsinə yeni baxış*........................................... 9-17

*1.2. İbtidai təhsil pilləsində ingilis dili dərslərində aparılan yoxlamaların məqsədləri, funksiyaları, növləri və formaları*........................................................................... 17-28

**II FƏSİL. İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ**............................................... 29-64

*2.1. Qiymətləndirmə təlim sisteminin əsas komponentlərin-dən biri kimi*…………………………………............................... 29-44

*2.2. İbtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə təlim nəticələrinin qiymətləndirilməsi üsulları*……………............. 44-60

*2.3. Aşağı siniflərdə ingilis dili təlimində nəzarət və qiymətləndirilmənin məktəb təcrübəsinin öyrənilməsi*........... 60-63

**NƏTİCƏ**.......................................................................................... 64-66

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI**................................ 67-70

# GİRİŞ

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Başqa sözlə, bu islahatların əsas məqsədi cəmiyyətin ehtiyac və tələbləri nəzərə alınmaqla, təhsilin keyfiyyətini yaxşılaşdırmaq və onun inkişafını təmin etməkdir. Bununla əlaqədar təhsilin keyfiyyətini şərtləndirən amillərə, ilk növbədə təhsilin məzmununa, tədris texnologiyalarına və qiymətləndirmə sistemlərinə yenidən, dövrün tələbləri səviyyəsində baxılması zərurəti yaranmışdır.

Yeni qiymətləndirmə sisteminin hazırlanması Təhsil Sektorunun İnkişafı layihəsində prioritet istiqamətlərdən biri kimi müəyyən olunmuşdur. Təlim və tədris prosesinin təkmilləşdirilməsi, ölkə üzrə şagirdlərin nailiyyətləri barədə obyektiv məlumatların əldə edilməsi, habelə dövlət təhsil standartlarının monitorinqinin həyata keçirilməsi üçün müasir qiymətləndirmə mexanizmlərinin yaradılması mühüm vəzifə kimi irəli sürülür. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələri olduğundan, həmin nəticələrin obyektiv qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur.

Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası ölkədə yaxın illər ərzində təhsildə qiymətləndirmə məsələləri ilə bağlı tədbirləri idarə etmək üçün nəzərdə tutulmuşdur. Sənədin əsas məzmunu qiymətləndirmə fəaliyyətinin qanuniliyini təmin edən prinsiplərin müəyyənləşdirilməsinə, bu fəaliyyətin aparıcı istiqamətlərinin təyin edilməsinə, qiymətləndirmə tədbirlərini həyata keçirən qurumların sosial statusunun gücləndirilməsinə, qiymətləndirmədən təlim və tədrisin ehtiyaclarını ödəmək üçün istifadə edilməsinə yönəldilmişdir. Bu sənəd çərçivə sənədi kimi Azərbaycan Respublikasının Təhsil Qanununun, Azərbaycan Respublikasının Təhsil sahəsində İslahat Proqramının tələblərinə və dövlətin təhsil siyasətinə, qiymətləndirmənin müasir dünya standartlarına uyğun hazırlanmışdır və yeni qiymətləndirmə sisteminin prinsipləri üçün baza rolunu oynayır. Sənəddə məktəbdaxili, milli və beynəlxalq qiymətləndirmənin əsas prinsipləri və fəaliyyət sahələri şərh edilir. Konsepsiyada qiymətləndirmə növlərinin

hər birinin etibarlılığını və effektivliyini təmin etmək üçün dəqiq qaydalar və əsasnamələr formasında əlavə sənədlərin hazırlanması da nəzərdə tutulur.

Konsepsiya Azərbaycanda ümumitəhsilin müasirləşdirilməsi və yeniləşdirilməsi məqsədi ilə hazırlanmış Milli Kurikulum çərçivə sənədi ilə bilavasitə əlaqəlidir və onun tərkib hissəsini təşkil edir. Qiymətləndirmə mexanizmlərinin və vasitələrinin yaradılması təhsilin məzmun standartları və fənn kurikulumları hazırlandıqdan sonra növbəti mərhələlər hesab olunur.

Yeni qiymətləndirmə sistemi aşağıdakıları təmin edir:

-təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsini;

-təhsilin keyfiyyəti üçün əsas göstərici olan “şagirdin təlim nəticələri” haqqında etibarlı məlumat verilməsini;

-qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılmasını;

-təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyasını;

-qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsini.

***Mövzunun aktuallığı.*** Ötən əsrin son illərindən başlayaraq təhsil sahəsində aparılan eksperimentlərin, tətbiq olunan yeniliklərin səmərəliliyinin artırılması, nəticələrin izlənilməsi, proqnozlaşdırılması və korreksiya işlərinin vaxtında həyata keçirilməsi məqsədi ilə təhsildə monitorinq (yoxlama) və qiymətləndirmə mexanizmi tətbiq olunmağa başlanmışdır. Hazırda nəinki Azərbaycanda, hətta dünyanın inkişaf etmiş bir sıra ölkələrində də təhsildə yoxlama və qiymətləndirmə sistemi kifayət qədər mükəmməl qurulmayıb və əksər hallarda bu, demək olar ki, lokal xarakter daşıyır. Bu gün hər bir ölkə özü üçün əlverişli olan, milli və beynəlxalq prinsiplərə uyğun gələn qiymətləndirmə sistemlərinin tətbiqinə geniş yer verir.

Qeyd etmək istərdik ki, respublikamızın ümumtəhsil sistemində yoxlama və qiymətləndirmə həmişə mövcud olmuşdur. Buraya şagirdlərin bilik səviyyələrini dəqiqləşdirmək üçün aparılan yoxlama işləri, imtahanlar və inspektor yoxlamaları

aiddir. Lakin təcrübə göstərir ki, bütün bu ənənəvi yoxlama formaları lazımi effekt vermir və onların bir sıra çatışmazlıqları meydana çıxır.

Digər tərəfdən, hazırda xarici dilləri öyrənənlərin nailiyyətləri ənənəvi qiymətləndirmədən fərqli olaraq, tamamilə yeni metod və üsullardan istifadə olunmaqla şagirdyönümlü istiqamətdə yoxlanılır və qiymətləndirilir. Bu radikal dəyişikliklər, yəni yeni forma və üsullar vasitəsilə şagirdlər tədris prosesinə (dilöyrənmə) daha yaxından cəlb olunurlar və onlar dilöyrənmə prosesinə daha düzgün qiymət verə bilirlər.

İbtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə bilik və bacarıqlarının qiymətləndirilməsinin düzgün həyata keçirilməsi üçün onun növləri, formaları və qiymətləndirmə sistemində istifadə olunan üsul və vasitələr barədə fikirlər müxtəlifdir. Həmin fikirləri öyrənmək, ümumiləşdirmək və sistemləşdirmək, eyni zamanda, qiymətləndirmənin keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənməyib onun yaxşılaşdırılması və idarə olunması problemini qismən də olsa həll etmək baxımından dissertasiya mövzusunun aktuallığını qeyd etməkdir.

***Problemin öyrənilmə dərəcəsi.*** Kurikulum islahatının ən mühüm keyfiyyət göstəricisi şagird nailiyyətlərinin qiymətləndirilməsidir. Azərbaycanın ümumtəhsil məktəblərində şagirdlərin təlim nəticələrinin yoxlanılması və qiymətləndirilməsi, müasir monitorinq metodlarından istifadəyə geniş yer verilməsi, qiymətləndirmə nəticələrinin bazasında müvafiq hesabatların aparılması mühüm əhəmiyyət kəsb edir. Təhsil sahəsində həyata keçirilən qiymətləndirmə siyasətinin əsas istiqamətləri ölkənin ümumtəhsil sistemində beynəlxalq, milli və məktəbdaxili qiymətləndirmə sisteminin hazırlanması və həyata keçirilməsini təmin etməkdən ibarətdir. Nailiyyətlərin monitorinqi və qiymətləndirilməsinin nəticələri isə daha ətraflı təhlillər aparmağa, mülahizələr irəli sürməyə, müxtəlif səpkili tədqiqatlar yerinə yetirməyə etibarlı zəmin yaradır.

Biz ədəbiyyat araşdırmalarını, əsasən, ibtidai təhsil pilləsində həyata keçirilən təlim fəaliyyətinin nəticələrinin yoxlanılması və qiymətləndirilməsi istiqamətində aparmışıq və aşağı sinif şagirdlərinin ingilis dili üzrə nailiyyətlərinin hesaba alınması və qiymətləndirilməsi probleminə dair dissertasiya işinə və ya monoqrafiyaya rast

gəlməmişik. Yalnız bəzi orta məktəb müəllimlərinin qiymətləndirmə problemilə bağlı "Azərbaycan müəllimi" qəzetində çap etdirdikləri məqalələrlə tanış olmuşuq.

"Şagird nailiyyətlərinin qiymətləndirilməsi" (A.Əhmədov və b.), "Məktəbdaxili qiymətləndirmənin aparılması yolları" (T.Hacıyeva), "Biliyin qiymətləndirilməsi" (Ş.Əsgərov), "Təhsildə monitorinq sistemi və onun növləri" (T.Qardaşov, İ.Cavadov), "Təhsil sistemində qiymətləndirmə problemi və onun reallaşdırılması imkanları" (A.Mehrabov), "Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi" (R.Məmmədzadə) mövzularda müxtəlif mənbələrdə bəzi tədqiqatçıların əsərləri ilə də yaxından tanış olmuşuq.

***Tədqiqatın obyekti*** ibtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə təlim nəticələrinin yoxlanılması və qiymətləndirilməsi prosesidir.

***Tədqiqatın predmeti*** ibtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə nailiyyətlərinin monitorinqi və qiymətləndirilməsinin pedaqoji problem kimi tədqiqidir.

***Tədqiqatın məqsədi*** ibtidai təhsil pilləsində şagirdlərin ingilis dilinə yiyələnmələri prosesində onların bilik və bacarıqlarının nəzərə alınması və qiymətləndirilməsinin həyata keçirilməsi üçün fəaliyyət növləri, formaları və həmin sistemdə istifadə olunan üsul və vasitələrin araşdırılmasından ibarətdir.

***Tədqiqatın vəzifələri*** aşağıdakı kimi müəyyənləşdirilmişdir:

-ibtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsinə dair dövlət sənədlərinin (proqram, kurikulum, standartlar, qiymət kriteriyaları və s.) öyrənilməsi;

-təhsilin nəticələrinin qiymətləndirilməsinə aid fikir və mülahizələri araşdırmaq;

-monitorinq, qiymətləndirmə və təhsilin keyfiyyəti məsələlərini tədqiq etmək;

-müxtəlif növ qiymətləndirmənin aparılması yollarını müəyyənləşdirmək;

-yoxlamaların aparılması, qiymətləndirmənin təşkili və prinsiplərini araşdırmaq;

-ibtidai təhsil pilləsində şagirdlərin nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsinə dair məktəb təcrübəsinin öyrənilməsi.

***Tədqiqatın fərziyyəsi.*** Düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin və şagirdin fəaliyyəti, müəllimin fəaliyyətinin şagirdlərin tələbatına nə

dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan yarada bilər.

***Tədqiqatın elmi yeniliyi*** ondan ibarətdir ki, bu tədqiqat işində ibtidai təhsil pilləsi şagirdlərinin nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi təhsil prosesinin mühüm tərkib hissəsi kimi tədqiq olunur. Dissertasiyada xarici dil üzrə bilik və bacarıqların qiymətləndirilməsinin aparılması yolları müəyyənləşdirilir, müxtəlif növ yoxlamaların həyata keçirilməsi, qiymətləndirmənin təşkili və prinsipləri araşdırılır. Tədqiqat yalnız nəzəri xarakter daşımır, eyni zamanda ibtidai təhsil pilləsində şagirdlərin nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsinə dair ingilis dili müəllimlərinin iş təcrübəsi də tədqiqata cəlb olunur.

***Tədqiqat işinin nəzəri metodoloji bazasını*** ümumilikdə şagird nailiyyətlərinin qiymətləndirilməsi (A.Əhmədov, T.Şərifov, Ə.Abbasov və b.), qiymətləndirmənin aparılması yolları (T.Hacıyeva, Ş.Əsgərov və b.), təhsildə monitorinq sistemi (T.Qardaşov, A.Əliyev, M.Mərdanov və b.), təhsildə keyfiyyət (R.Məmmədzadə, A.Mehrabov və b.), tədrisin mərhələlərinə görə qiymətləndirmə (J.Harmer, Penn Ur, P.Blək, D.Vilyam, A.Şakurov və b.) üzrə tədqiqatlar təşkil edir.

Araşdırmalar zamanı aşağıdakı ***tədqiqat metodlarından*** istifadə olunmuşdur:

1. Nəzəri təhfil və tərkib. Problemlə bağlı metodik ədəbiyyat, proqram və digər sənədlər təhlil edilmişdir.

2. Pedaqoji müşahidə. Tədqiqatla əlaqədar olaraq Nəsimi rayonu, 164 saylı tam orta məktəbin aşağı siniflərində ingilis dili dərsləri, müəllimlərin iş sistemi müşahidə edilmişdir.

3. Həmin məktəbin ibtidai təhsil pilləsində ingilis dili dərsləri aparan müəllimlərlə müsahibə aparılmış, bəzi şagirdlərin fikirləri öyrənilmişdir.

***Tədqiqatın nəzəri əhəmiyyəti.*** Müasir təhsil sistemində metodik cəhətdən düzgün seçilmiş iş üsulları sayəsində yüksək təlim nəticələri əldə etmək olar. Təlim nəticələrinin düzgün və obyektiv qiymətləndirilməsi üçün hər bir müəllim nəzəri hazırlığa malik olmalı və müəyyən iş üsullarının seçilməsində konkret normalara və kriteriyalara əsaslanmalıdır. Dissertasiya işində təlim nəticələrinin yoxlanılması və qiymətləndirilməsi məsələlərinə dair fikir və mülahizələr xüsusi bölmələrdə təqdim olunmuşdur.

***Tədqiqatın praktik əhəmiyyəti.*** Yeni qiymətləndirmə sisteminin fəaliyyət mexanizmini başa düşmək üçün qiymətləndirmə və monitorinq anlayışlarının mahiyyətini bilmək lazımdır. Şagirdin hər hansı fəndən müəyyən mövzu, bölmə və ya tam kurs üzrə bilik və bacarıqlarının səviyyəsi (nailiyyət səviyyəsi) onun göstərdiyi təlim nəticələrinin uyğun qiymətləndirmə standartları ilə müqayisə olunması ilə müəyyənləşdirilir. Keyfiyyətin faktiki vəziyyətini müəyyənləşdirməklə kifayətlənmə-yib onun yaxşılaşması və idarə olunması (təminatı) problemini də həll etmək olar. Bu barədə dissertasiya işində müvafiq tövsiyələr təqdim olunur. Onlardan aşağı sinif şagirdlərinin təlim nəticələrinin qiymətləndirilməsində istifadə edilə bilər.

Müdafiəyə aşağıdakı ***müddəalar*** çıxarılır:

1. Şagird nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir.

2. Bütün növ qiymətləndirmələrin aparılmasında konkret prinsiplərə riayət olunur.

3. İbtidai təhsil pilləsində qiymətləndirmənin düzgün həyata keçirilməsi şagirdlərin dilöyrənmə prosesinə həvəsi və marağını artırır.

***Tədqiqatın aprobasiyası.*** Dissertasiya işinin bəzi məsələləri barədə ADU-nun Linqvodidaktika kafedrasının iclaslarında, magistrlərin hesabat xarakterli görüşlə-rində məruzələr edilmiş, Tələbə Elmi Cəmiyyətinin konfransında (2016) çıxış edilmiş və mövzu ilə əlaqədar iki ədəd məqalə ADU-nun Elmi Xəbərlərində çap edilmişdir.

***Dissertasiyanın quruluşu.*** Dissertasiya işi giriş, 2 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

# I FƏSİL

# İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ NAİLİYYƏTLƏRİNİN YOXLANILMASI

## *1.1. Xarici dil üzrə təhsilin nəticələrinin yoxlanılmasına və qiymətləndirilməsinə yeni baxış*

Azərbaycanın ümumtəhsil məktəblərində şagird nailiyyətlərinin qiymətləndirilməsi üçün dəqiq qiymətləndirmə standartlarının olması, şagird nəticələrinin obyektiv qiymətləndirilməsi, müasir qiymətləndirmə metodlarından istifadəyə geniş yer verilməsi, qiymətləndirmə nəticələrinin təhlili, müvafiq hesabatların aparılması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycanın təhsil sistemində son illər həyata keçirilməyə başlanmış islahatlar sayəsində müəyyən uğurlu nəticələr əldə edilib. Təhsil sahəsində həyata keçirilən qiymətləndirmə siyasətinin əsas istiqamətləri ölkənin ümumtəhsil sistemində beynəlxalq, milli və məktəbdaxili qiymətləndirmə sisteminin hazırlanması və həyata keçirilməsini təmin etməkdən ibarətdir. Ölkənin təhsil sistemində həyata keçirilən islahatların nəticəsi olaraq azərbaycanlı mütəxəssislər tərəfindən ABŞ-ın və Avropanın inkişaf etmiş dövlətlərinin qiymətləndirmə sahəsində təcrübəsi öyrənilib, milli xüsusiyyətlərimizə uyğun araşdırmalar aparılıb, "Azərbaycan Respublikasının ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası" hazırlanaraq təsdiq edilib (1).

Həyatda hər bir fəaliyyət sahəsinin, prosesin öz fəlsəfəsi olduğu kimi təhsil sahəsində qiymətləndirmə də mahiyyət etibarilə öz fəlsəfi məna tutumuna malikdir. Heç şübhəsiz, qiymətləndirmənin fəlsəfəsi özündə keyfiyyətin idarə olunmasında başlıca amil kimi çıxış etməsini, keyfiyyətin yüksəldilməsi ilə əlaqədar ən zəruri qərarların qəbul edilməsi üçün etibarlı mənbə olmasını ehtiva edir. Məlum məsələdir ki, qiymətləndirmənin mərkəzində təhsilalanların nailiyyətləri dayanır. Təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsinin nəticələri isə daha ətraflı təhlillər aparmağa, qiymətləndirilənlərin əhatə dairəsinin genişləndirilməsinə etibarlı zəmin yaradır.

Təhsil nəticələrinin araşdırılması, yoxlanılması və qiymətləndirilməsindən danışdıqda, şagird nailiyyətlərinin nəticələrinin nədən ibarət olması və onların necə müəyyənləşdirilməsi (ölçülməsi) məsələləri əsas götürülür. Təhsildə ölçü dedikdə, hər şeydən əvvəl, ölçüləcək və ya öyrəniləcək hadisələrin, əməliyyatların say baxımından xarakteristikası açıqlanır. Təhsildə ölçünün (qiymətləndirmənin) bir neçə aspekti fərqləndirilir. Məsələn, biliyin həcmi, bacarıqların formalaşma səviyyəsi, testdə düzgün cavabların miqdarı və s.

Müasir məktəb müxtəlif xarakterli diaqnostik (müəyyənləşdirici) metodikalardan istifadə edir. Bəzən elə hallar olur ki, hətta müəllimlər özləri müxtəlif diaqnostik formalar hazırlayıb tətbiq edirlər. Ona görə qiymətləndirmə nəzəriyyəsinin əsas anlayışlarını bilmək müəllimlərin professional mədəniyyətinin əsas şərtlərindən biridir. Digər tərəfdən, təhsil prosesində yoxlamalar və qiymətləndirmələr istifadə olunan metodik iş sisteminin və buraxılan pedaqoji nöqsanların profilaktikası deməkdir.

Diaqnostik metodikaları istiqamətindən asılı olaraq iki hissəyə – pedaqoji və psixoloji hissələrə bölürlər (17). Aydındır ki, psixoloji diaqnostik metodikalar şagird şəxsiyyətinin psixi xüsusiyyətlərini öyrənirsə, pedaqoji diaqnostik metodikalar şagird fəaliyyətinin pedaqoji aspektlərini araşdırır. Bu baxımdan təhsil prosesinin diaqnostikası təlim prosesinin və tətbiq edilən proqramların səmərəlilik səviyyəsinin qiymətləndirilməsinin üzvi hissəsidir. Təlim prosesində əldə edilmiş hər bir nəticə fəaliyyətin keyfiyyətinin göstəricisi kimi başa düşülür.

Təhsil işçiləri yaxşı başa düşürlər ki, təhsil prosesi çoxistiqamətli, mürəkkəb və ciddi proses olduğuna görə onun nəticələri də müxtəlif xarakterli olub, bir-birilə didaktik baxımdan əlaqəlidir. Ona görə də, çox çətinliklə müəyyənləşdirmək olur ki, hansı növ fəaliyyətlər və komponentlər təhsilin keyfiyyətinin qiymətləndirilməsində müsbət və ya mənfi rol oynaya bilər. Bunun da nəticəsində qiymətləndirmə parametrləri mexanizminin yaradılması müəyyən çətinliklər törədir.

Son zamanlar dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsindən istifadə edərək şagirdin özünü qiymətləndirməsi təcrübəsindən istifadə olunur. Başa düşüləndir ki, şagirdin özünü qiymətləndirməsi hərtərəfli qiymətləndirmənin mühüm hissələrindən biridir. Bu fəaliyyət növü şagirdlərə öz irəliləyiş və geriləmə templərini müəyyənləş-

dirməkdə, uğurlar əldə etməkdə, məsuliyyətlərini aydınlaşdırmaqda kömək edir və onların fəaliyyətinə hərtərəfli qiymət verilməsinə şərait yaradır.

Qiymətləndirmə təhsil prosesinin tərkib hissəsi olduğuna görə onun yaranma tarixi də eyni qədimliyə gedib çıxır. Tədqiqatlar göstərir ki, ilk qiymətləndirmə Çində tətbiq olunmuşdur. Burada dövlət məmuru kimi çalışmaq üçün imtahandan keçmək lazım idi. Şifahi, sonralar həm də yazılı aparılan bu imtahanlar Çində 1905-ci ilədək davam etmişdi.

Avropada məktəblərin yarandığı ilk dövrlərdən şagirdlərin biliklərini ölçmək yolları haqqında düşünür və müxtəlif üsulları təcrübədən keçirirdilər. Əvvələr imtahanlar şifahi götürülürdü. Şagirdlər qoyulan suallara latın dilində cavab verirdilər və müəllim bu cavabları qiymətləndirirdi. İlk yazılı imtahanların tarixi isə 1792-ci ildə Böyük Britaniyanın Kembric universitetindən başlanır.

Pedaqoji sahədə tədqiqatçılar qiymətləndirmə tarixini bir neçə mərhələyə bölürlər. Birinci Dünya müharibəsinə qədər olan dövrdə şagirdlərin bilikləri testlər vasitəsilə qiymətləndirilir və əsasən, fənlərin məzmununun mənimsənilməsinə diqqət yetirilirdi.

XX əsrin əvvəllərindən başlayaraq təhsil sahəsində inkişaf meyilləri gücləndikcə şagird nailiyyətlərinin qiymətləndirilməsi ilə bağlı yeni ideyalar meydana çıxırdı. Həmin dövrdə ABŞ- da "mütərəqqi təhsil ideyası" yarandı və tədricən digər ölkələrə də yayıldı.

"Mütərəqqi təhsil ideyası"nın əsas mahiyyəti ondan ibarət idi ki, təhsil elmi biliklərin yox, sənaye və texnologiyanın inkişaf istiqamətlərinə uyğun gələn həyati bacarıqların formalaşmasına yönəldilirdi. Təhsilin məzmununa bu cür yeni baxışlar tədricən qiymətləndirməyə yanaşmanı da dəyişdi. Artıq qiymətləndirmə daha çox biliklərin tətbiqinə və həyatla əlaqələndirilməsinə əsaslanırdı.

Növbəti onilliklərdə təhsilin xarakterinə uyğun olaraq, qiymətləndirmə qarşı-sında daha ciddi tələblər qoyulmağa başlandı. Belə ki, şagirdlər problemin həlli üzrə bacarıqlarını nümayiş etdirmək üçün müxtəlif səviyyəli suallara müəyyən olunmuş dəqiq vaxt çərçivəsində cavab verməli idi. Bu tipli suallar şagirdin fərdi bilik və bacarıqlarını ölçməyə imkan verməklə yanaşı, onların mənimsəmə səviyyəsini müqa-yisə etmək üçün də istifadə olunurdu. Sonralar mütəxəssislər bu müqayisələri sinif

səviyyəsindən çıxararaq məktəblər, regionlar, dövlətlər arasında aparılmasına imkan verən xüsusi proqramlar üzərində düşünməyə başladılar. Bu isə qiymətləndirmə sahəsində təcrübələrin sınaqdan keçirilməsi və təkmilləşdirilməsi prosesinin daimi və davamlı oldugunu sübut edir.

Rusiyanın təhsil tarixində, XVIII əsrin əvvəllərindən etibarən digər Avropa ölkələrində olduğu kimi, 3 səviyyəli qiymətləndirmə sistemi mövcud olmuşdur. Bu sistemə görə şagirdlərin nailiyyətləri yüksək, orta və aşağı səviyyələr olmaqla müəyyən edilmişdi. Sonralar sözlə ifadə olunan qiymətləndirmə nəticələri qısa olaraq rəqəmlə ifadə olunmağa başlandı. 1944-cü ildə qəbul edilən «5» ballıq qiymət şkalası o zamandan bütün SSRİ məkanında, o cümlədən ölkəmizdə də şagirdlərin biliyinin ölçülməsi üçün yeganə meyar oldu.

Azərbaycanda qiymətləndirmədə "9" ballıq sistemin tətbiqini məktəblərdə sınaqdan keçirmək məqsədilə 2001-2002-ci tədris ilindən İsmayıllı və Bakı şəhərinin Nərimanov rayonlarında başlanan eksperimentlər sonradan Gəncə, Şəki, Quba və Lənkəran rayonlarının məktəblərini də əhatə etmişdi. "9" bal sistemi ilə qiymətləndirmədə "1" və "2" mənfi, digər bütün ballar isə müsbət qiymət hesab olunurdu. "9" bal sistemi "5" ballıq şkala ilə müqayisədə belə ifadə olunurdu: 1 və 2 - 1; 3 - 2; 4 və 5 - 3; 6 və 7 - 4; 8 və 9 - 5. Lakin lazımi nəticə vermədiyinə görə uzun müddət aparılan bu eksperiment 2008-ci ildən dayandırıldı. Bu bir daha göstərdi ki, hansı qiymət şkalasından istifadə edilirsə edilsin, mövcud qiymətləndirmə sistemi şagirdlərin inkişafını sistemli şəkildə izləməyə imkan vermir, şagirdin nailiyyəti keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirilir.

Odur ki, "5" ballıq qiymət şkalası saxlanılmaqla yeni prinsiplərə söykənən qiymətləndirmə sisteminin yaradılması ideyası ətrafında elmi və pedaqoji araşdırmalar aparılmağa başlandı. Bu sahədə aparılan islahatların məqsədi təhsilin keyfiyyətini yüksəltmək, onun inkişafını cəmiyyətin ehtiyac və tələblərinə yönəltmək olduğu üçün yalnız təhsilin məzmununa deyil, həm də onun keyfiyyətini müəyyən edən vasitələrə yenidən baxmaq, dövrün tələblərinə cavab verən qiymətləndirmə sistemi yaratmaqdır.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, nailiyyətlərin qiymətləndirilməsi sahəsində dəyişikliklər təhsilin məzmununa nisbətən daha tez-tez baş verir. Məsələn, son

50 ildə İngiltərədə heç bir məzmun islahatı aparılmamış, yalnız qiymətləndirmə sahəsində dəyişikliklər edilməklə kifayətlənilmişdir.

Ayrı-ayrı dövrlərdə şagirdlərin bilik və bacarıqlarının daha dəqiq, obyektiv və humanist yollarla qiymətləndirilməsi üçün müxtəlif sistemlər təcrübədən keçirilmişdir. Hər bir ölkə bu gün özü üçün əlverişli olan, milli və beynəlxalq prinsiplərə uyğun gələn sistemlərin tətbiqinə geniş yer verir. Məsələn, Amerika məktəblilərinin kolleclərə qəbulunda onların intellektual bacarığını yoxlayan xüsusi ümumfederal testlərin nəticələri böyük rol oynayır. Bu testlər şagirdlərin intellektual qabiliyyətini və konkret fənlər üzrə bilik və bacarıqlarını ölçür.

Böyük Britaniyada məktəbəqədər təhsildən məktəbə daxil olan bütün uşaqlarla müəllimlər tərəfindən tədris planını müəyyənləşdirmək və təlimi diferensiallaşma əsasında qurmaq məqsədilə diaqnostik qiymətləndirmə aparılır. Eyni zamanda bu ölkənin təhsil sistemində formativ qiymətləndirməyə xüsusi önəm verilir. Öyrədici xarakter daşıyan formativ qiymətləndirmə şagirdlərin təlim nəticələrinə müsbət təsir edir və summativ qiymətləndirmə üçün bir növ hazırlıq rolunu oynayır.

Fransada icbari təhsil uşaq bağçasından başlanır və 3-4 il davam edir. İbtidai təhsil 6 yaşdan başlanır, ibtidai təhsil 5 il, orta təhsil isə 4 il davam edir. Təhsil bütün vətəndaşlar üçün pulsuzdur. Orta təhsil pilləsində şagirdlər milli standartlar üzrə təhsil alırlar. Sonra ixtisaslaşma aparılır. Fransada abituriyentlər ali məktəblərə qəbul imtahanları vermirlər. Qəbul məktəb təhsilinin nəticələrinə görə aparılır. Daxil olmaq üçün orta təhsil haqqında sənəd yetərlidir. Bu ölkədə ali məktəbləri ən yaxşı halda tələbələrin 50 faizi bitirə bilir.

Almaniyada ibtidai təhsil pilləsini (bəzi yerlərdə 4-cü, bəzilərində 6-cı sinif) bitirən şagirdlər imtahanların nəticələrinə görə təhsilini 4 müxtəlif tipli məktəbdə (9-cu sinfə qədər davam edən ibtidai məktəb, 10-cu sinfə qədər davam edən məktəb, 12-13-cü sinfə qədər davam edən gimnaziya, əvvəlki iki məktəbdən yüksək, gimnaziyadan aşağı səviyyəli ümumitəhsil məktəbi) davam etdirə bilərlər.

Almaniya məktəblərində şagirdlərin inkişafı müəllim tərəfindən ilboyu monitorinq vasitəsilə izlənilir. 1-ci və 2-ci siniflərin sonunda şagirdin irəliləyişləri və geriləmələri haqqında müəllim tərəfindən yazılı hesabat hazırlanır. 3-cü sinifdən

başlayaraq testlər aparılır və şagirdlər hər 6 aydan bir ayrı-ayrı fənlər üzrə qiymətlər yazılmış yazılı hesabat kartları alırlar. Yerli təhsil orqanları da milli təhsil standartlarına əsasən şagirdlərin təlim nəticələrini yoxlayır.

Yaponiyada buraxılış siniflərinə daxil olmaq üçün 9-cu sinifdə qəbul imtahanları aparılır. Buna qədər heç bir imtahan və ya digər rəsmi qiymətləndirmə tətbiq olunmur. Şagirdin inkişafı fərdi qaydada izlənilir və onun haqqında hesabat hər bir rübün sonunda valideynlərə xüsusi hesabat kartları vasitəsilə çatdırılır.

Hollandiyada məktəblərə yüksək özünüidarə hüquqları verilib. Milli Kurikulum üzrə fənləri nə vaxt və necə tədris etmək, şagirdləri qiymətləndirməklə bağlı məsələlərdə məktəblər müstəqil qərarlar qəbul edir. İbtidai təhsildə rəsmi qiymətləndirmə aparılmır. Şagirdlərin fəaliyyəti formativ qiymətləndirmə vasitələri ilə izlənilir.

Türkiyədə daha çox formativ qiymətləndirmədən istifadə olunur. 4, 5, 6, 7 və 8-ci sinif şagirdləri arasından təsadüfi seçim etməklə təhsilin keyfiyyətinin monitorinqi məqsədilə türk dili, riyaziyyat, həyati bacarıqlar üzrə testlər keçirilir. İbtidai təhsildən orta təhsilə keçmək üçün yekun qiymətləndirmə aparılır.

Qeyd olunan dövlətlərin təcrübəsi göstərir ki, məktəbdaxili qiymətləndirmə müxtəlif istiqamətlərdə reallaşdırılır. Lakin ümumi cəhət bundan ibarətdir ki, əvvəlcə şagirdlərin ilkin bacarıqları müəyyənləşdirilir, sonra bütün tədris ili boyunca onların nailiyyətləri izlənilir və yekun qiymətləndirmə aparılır.

Azərbaycanda "qiymətləndirmə" dedikdə bəziləri bunu yalnız təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edirlər. Lakin dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Tətbiq edilən qiymətləndirmə sistemi şagirdlərin nailiyyətini keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirir. Nəticədə şagirddə özünün səviyyəsi barədə dolğun fikir formalaşmır. Eyni zamanda qiymətləndirmənin yalnız məktəbdaxili formasının həyata keçirilməsi, milli və beynəlxalq qiymətləndirmənin tətbiq edilməməsi məktəblərin reytinqinin formalaşmasına, milli səviyyədə təhlillərə imkan vermirdi və respublikada təhsilin keyfiyyəti barədə etibarlı informasiyanın əldə olunması mümkün olmurdu.

"Şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Uzun müddət pedaqoji aləmdə "şagirdlərin bilik, bacarıq və vərdişlərin qiymətləndirilməsi" anlayışı işlədilmişdir. Bununla belə, qiymətləndirmə dedikdə, bir qayda olaraq, şagirdlərin gündəlik (cari) qiymətləndirilməsi başa düşülmüşdür. Belə qiymətləndirmə növü isə mahiyyət etibarı ilə heç bir əhəmiyyət kəsb etmir.

Beləliklə, ümumiləşdirmə aparsaq, qiymətləndirmənin mahiyyətini və xarakterini aşağıdakı kimi qruplaşdırmaq olar:

-idarəedici - təhlil vasitəsilə əldə edilən nəticələr əsasında yeni keyfiyyət səviyyəsinin müəyyənləşdirilməsi;

-səfərbəredici - təhsilin keyfiyyətinin təmin olunmasında təhsilverənlərin, təhsilalanların, valideynlərin, məktəb rəhbərlərinin, təhsili idarəetmə orqanlarının səylərinin birləşdirilməsi və məsuliyyətinin artırılması;

-inkişafetdirici - qiymətləndirmənin nəticələrinə görə keyfiyyət dəyişikliklərinin aparılması prosesində təhsilalanların, təhsilverənlərin, idarəedənlərin inkişafı;

-perspektivlilik - mövcud nəticələrə görə gələcək fəaliyyət istiqamətlərinin və təhsil siyasətinin müəyyənləşdirilməsi;

-proqnostik - təhsilin keyfiyyətinin bugünkü inkişaf səviyyəsi baxımından növbəti mərhələlər üçün hədəflərin real təsəvvür edilməsi.

Obyektiv aparılmış qiymətləndirmə, hər şeydən əvvəl, real vəziyyətin aşkara çıxarılmasında mühüm vasitədir. Məhz real vəziyyətin təhlili nəticəsində buraxılan nöqsanlar müəyyən edilir, onların aradan qaldırılması yolları dəqiqləşdirilir və gələcək üçün proqnozlaşdırma aparılır.

İmtahanlar şagird nailiyyətlərinin qiymətləndirilməsinin bir formasıdır, məktəbdaxili qiymətləndirmənin sonuncu mərhələsidir. Yekun qiymətləndirməyədək şagirdlər digər qiymətləndirmə mərhələlərindən, o cümlədən diaqnostik, formativ və summativ qiymətləndirmə mərhələlərindən keçirlər. Bütün bu məsələlər, eləcə də şagird nailiyyətlərinin qiymətləndirilməsinə yeni yanaşma 2006-cı ildə hökumət tərəfindən təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu)" sənədində öz əksini tapmışdır. Həmin sənəddə şagird nailiyyət-

lərinin qiymətləndirilməsi təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsi kimi təqdim olunur, təhsilin keyfiyyətinin dəyərləndirilməsinə və nəticə etibarilə onun yüksəlməsinə xidmət etməsi xüsusi vurğulanır.

Hazırda qiymətləndirmə sahəsində diqqət məktəbdaxili qiymətləndirmənin iki növünə (diaqnostik və formativ) yönəlmişdir.

Diaqnostik qiymətləndirmə konkret bir mərhələdə təhsilalanın nailiyyətlərinin səviyyəsini müəyyən etmək üçün aparılır. Diaqnostik qiymətləndirmə şəraitə görə təlim məqsədləri və strategiyalarında çevik dəyişikliklər aparılmasını təmin edir, şagirdlərin maraq dairəsi, dünyagörüşü, yaşadığı mühit haqqında məlumatlar almağa imkan yaradır. Bu qiymətləndirmə növünü ilkin səviyyənin qiymətləndirilməsi də adlandırırlar. Diaqnostik qiymətləndirmə olduqca məsuliyyətli mərhələdir və böyük diqqət tələb edir, çünki şagird bu ilkin mərhələdə düzgün qiymətləndirilməzsə onun sonrakı inkişaf istiqamətlərini optimal müəyyənləşdirmək qeyri-mümkün olar.

Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini, şagirdlərin təlim sahəsində irəliləyişlərinin izlənilməsini təmin edir, onların təlim ehtiyaclarının öyrənilməsinə lazımi şərait yaradır.

Summativ qiymətləndirmə təhsilin hər hansı bir mərhələsində (tədris vahidinin, yarımilin və ilin sonunda) şagirdlərin əldə etdikləri nailiyyətlərin qiymətləndirilməsidir. Bu qiymətləndirmə məzmun standartlarının mənimsənilmə səviyyəsinin etibarlı göstəricisidir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində vacib istiqamətlərdən biri təhsilalanların təlim fəaliyyətinin, nəticələrinin dövlət standartlarına uyğunluğunun müəyyənləşdirilməsidir. Başqa sözlə, bu proses kurikulum üzrə qiymətləndirmə də adlandırılır. Bu zaman ciddi əhəmiyyət kəsb edən məsələlərdən biri kurikulumlarda təsbit edilmiş dövlət standartlarının dövrün tələbinə görə hansı səviyyədə tərtib olunması, eləcə də bu standartların şagirdlər tərəfindən mənimsənilməsi vəziyyətinin müəyyənləşdirilməsidir.

Bugünkü qiymətləndirmə siyasətində milli qiymətləndirmənin möhkəm yer tutması müstəqillik illərində Azərbaycan təhsilinin inkişaf etmiş ölkələrin təhsil sistemlərinə məqsədyönlü inteqrasiyasının nəticəsidir. Keçmiş Sovetlər Birliyində əsas və orta təhsil pilləsi üzrə şagird nailiyyətlərinin ölkə üzrə qiymətləndirilməsi aparılsa da, bu, nəticələrə görə təhlillər aparıb təhsilin keyfiyyətinin yaxşılaşdırılması ilə bağlı inkişafyönümlü tədbirlərin müəyyənləşdirilməsinə deyil, yalnız şagirdlərin bir pillədən digərinə keçirilməsinə və təhsil sənədi almasına xidmət edirdi. Hazırda isə məktəbdaxili qiymətləndirmə ilə yanaşı, ölkə üzrə qiymətləndirməyə də yanaşma dəyişmişdir. Yanaşmanın dəyişməsi bu qiymətləndirmənin adından da məlum olur. Şagirdlərin təlim nəticələrində zəif və güclü tərəfləri aşkar etməklə, ümumi mənimsəmə səviyyəsini və onun dinamikasını müəyyənləşdirmək milli qiymətləndirmənin əsas məqsədidir.

Milli qiymətləndirmə ölkə səviyyəsində təhsilalanların nailiyyətlərinin səviyyəsini müəyyənləşdirməyə əsas verirsə, beynəlxalq qiymətləndirmə konkret bir ölkədə təhsil səviyyəsinin digər ölkələrlə müqayisəli təhlilini aparmağa imkan yaradır. Əslinə qalsa, hər iki qiymətləndirmə bir-biri ilə sıx qarşılıqlı əlaqədədir. Beynəlxalq qiymətləndirmədə əsas məqsəd ölkədə təhsilin vəziyyəti haqqında müvafiq məlumat əldə etmək, beynəlxalq səviyyəli müqayisələr aparmaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri, təhsilin inkişafının prioritet istiqamətlərini təyin etməkdir.

### 1.2. İbtidai təhsil pilləsində ingilis dili dərslərində aparılan yoxlamaların məqsədləri, funksiyaları, növləri və formaları

Şagirdlərin tədris fəaliyyətinə nəzarət təlimin hansı didaktik sistemdə qurulmasından asılı olmayaraq onun vacib komponentlərindən biridir. Təlim zamanı şagirdlərin mənimsəmə fəaliyyətinə nəzarət imkan verir ki, müəllim onların bilik və bacarıqlarının mövcud vəziyyətindən hali olsun, ehtiyac duyan, çətinlik çəkən şagirdlərə lazımiköməklik göstərsin, müvafiq istiqamət versin; yaxud dərsdən sonra həmin şagirdlərlə fərdi iş aparsın. T.J.Kruks göstərir ki, ibtidai təhsil pilləsində şagirdlərin tədris fəaliyyətinə lazımınca nəzarət etməyən, müxtəlif formalı yoxlamalar vasitəsilə onların təlim nəticələrini üzə çıxarmayan və həmin səviyyənin

necəliyini sonrakı mərhələlərdə hesaba almayan müəllim təlimdə tam uğur qazana bilmir (32). Z.M.Svetkova isə qeyd edir ki, aşağı siniflərdə təhsilin keyfiyyətinin müəyyən olunması, yoxlamaların nəticələrinin təhlili şagird nailiyyətinin obyektiv qiymətləndirilməsi ilə şərtlənir (26). G.Harmer vurğulayır ki, şagirdlərin tədris fəaliyyətlərinin mütəmadi yoxlanması onun xüsusiyyətlərini qiymətləndirmək və hesaba almaqla sıx şəkildə əlaqədardır (34).

Ənənəvi didaktik sistemdə nəzarətin müxtəlif növlərindən istifadə olunmuşdur:

-gündəlik;

-tematik;

-dövrü;

-yekun.

Şagird nailiyyətlərinin öyrənilməsi, yoxlanılması, qiymətləndirilməsi çox geniş və əhatəli prosesdir. Bu proses, sadəcə, şagirdin nail olduğu təlim nəticələrinin səviyyəsini müəyyənləşdirməyə deyil, bütövlükdə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edir. Başqa sözlə, yoxlama və qiymətləndirmə keyfiyyəti idarə edən mühüm amillər kimi meydana çıxır. Davamlı və dinamik xarakter daşıyan şagird nailiyyətinin yoxlanılması prosesində şagirdlərin fəaliyyətlərinin daim nəzarətdə saxlanılması, onların irəliləyişlərinin, yaxud geriləmələrinin izlənilməsi və bu məqsədlə monitorinqlərin aparılması ciddi tələb kimi qarşıya qoyulur. Məhz həmin monitorinqlərin (yoxlamaların) nəticələri təlim prosesinin optimal qurulması, müəllimlərin fəaliyyətlərinin təkmilləşdirilməsi, habelə dərsliklərdə zəruri dəyişikliklərin aparılması barədə müvafiq qərarlar qəbul etməyə imkan yaradır.

Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Hər hansı fəaliyyət sisteminin vəziyyətini xarakterizə edən parametrlər (yununca "parametrou" - ölçülən deməkdir) standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir, təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici yoxlanılması keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.

Deməli, şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti, təhsil müəssisələrinin, təhsili idarəetmə strukturlarının və bütövlükdə təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür.

Yeni qiymətləndirmə sisteminin fəaliyyət mexanizmini başa düşmək üçün qiymətləndirmə və yoxlama anlayışlarının mahiyyətini bilmək lazımdır. Yuxarıda qeyd etmişdik ki, hər hansı sistemin vəziyyəti müəyyən parametrlərlə ölçülür (xarakterizə olunur). Şagirdin hər hansı fəndən müəyyən mövzu, bölmə və ya tam kurs üzrə bilik və bacarıqlarının səviyyəsi (nailiyyət səviyyəsi) onun göstərdiyi təlim nəticələrinin uyğun qiymətləndirmə standartları ilə müqayisə olunması ilə müəyyənləşdirilir.

Beləliklə, qiymətləndirmə ölçülən parametrin qiymətinin, obyektin və ya sistemin halının qəbul olunmuş standarta nisbətdə müəyyən olunmasıdır. Bu prosedur ölçmə nəticəsinin standarta yaxınlıq dərəcəsini kəmiyyət göstəricisinə çevirməyə imkan verən qiymətləndirmə şkalasının olmasını tələb edir.

Bu cür müəyyən olunan qiymətləndirmə faktiki vəziyyətin yoxlanılmış nəticəsidir. O, standartlara əsaslansa da, bəzi hallarda reallığı əks etdirməyə bilər. Belə ki, ibtidai təhsil pilləsində şagirdin yoxlama suallarına verdiyi cavablara da bəzən onun bilik və bacarığından əlavə kənar amillər təsir edə bilər (sağlamlıq durumu, psixoloji vəziyyəti və s.). Digər tərəfdən, faktiki vəziyyətin qiymətləndirilməsi statik xarakter daşıyır və nəticələr yoxlamaların aparıldığı zamandakı vəziyyəti əks etdirir. Zaman keçdikcə obyektin və ya sistemin halını (vəziyyətini) xarakterizə edən parametrlər dəyişir. Əgər fasiləsiz olaraq sistemli şəkildə belə qiymətləndirmələr aparılsa, müəyyən dövr ərzində parametrin qiymətini və vəziyyətin dəyişmə dinamikasını müəyyən etmək olar. Bu proses monitorinq adlanır. Monitorinq parametrin qiymətinin, obyekt və ya sistemin keyfiyyət göstəricisinin dəyişmə xüsusiyyətlərinin, bu dəyişmələrin səbəblərini, onlara təsir etmək yollarını müəyyən etməyə imkan verir. Beləliklə, yoxlamalar baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və müvafiq qərarların qəbul edilməsi ilə vəziyyət haqqında informasiyanın fasiləsiz və sistemli şəkildə yığılması və təhlili prosesidir. Onu da qeyd etmək

lazımdır ki, müasir dövrdə yoxlamalar (monitorinq) müxtəlif fəaliyyət sahələrində, o cümlədən təhsildə uğurla tətbiq olunan texnologiya kimi qəbul edilir.

Göründüyü kimi, qiymətləndirmə və monitorinq anlayışları bir-birilə əlaqəli, daha doğrusu biri digərinə xidmət edən anlayışlardır. Qiymətləndirmə faktiki vəziyyətin, monitorinq isə vəziyyətin dəyişmə dinamikasının, başqa sözlə, prosesin qiymətləndirilməsidir. Monitorinq faktiki vəziyyətin müntəzəm şəkildə qiymətləndirilməsi nəticəsində alınan informasiyanın toplanması və təhlil edilməsi yolu ilə həyata keçirilir.

Təhsildə monitorinq və qiymətləndirmənin ən böyük fərqi ondan ibarətdir ki, monitorinqin nəticələrindən proses davam edərkən onun səmərəliliyində, müəyyən düzəlişlərin edilməsində istifadə etmək mümkündür. T.Hacıyeva göstərir ki, monitorinq fəaliyyətin hazırkı vəziyyətini (status) müəyyən edir. Qiymətləndirmə isə fəaliyyətin təsirini (impact) müəyyənləşdirdiyi üçün monitorinq məqsədilə onun nəticələrindən növbəti dərs ilində və ya növbəti qiymətləndirmə proqramının həyata keçirilməsi zamanı istifadə etmək olar (6).

Deməli, monitorinq daxili idarəetmə prosesi olub təhsilin keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. O, təhsil fəaliyyətinin güclü və zəif tərəflərini üzə çıxararaq gözlənilən nəticələri əldə etmək üçün praktik təkliflərlə çıxış edə bilər. Onu da qeyd etmək lazımdır ki, təhsil keyfiyyətinin monitorinqi yalnız etibarlı məlumatların toplanması sayəsində həyata keçirilə bilər.

Təlim prosesinin mühüm ünsürlərindən biri nəzarətdir. Nəzarət dedikdə əldə olunan nəticəni qarşıya qoyulmuş məqsədlə tutuşdurmaq başa düşülür.

Pedaqoji nəzarətin bir neçə funksiyası vardır:

-yoxlama funksiyası (mənimsəmə səviyyəsini üzə çıxarmaq);

-diaqnostik funksiya (çətinlikləri, onların səbəblərini müəyyən etmək);

-proqnostik funksiya (təlimi, mənimsəməni təkmilləşdirmək yollarını müəyyən etmək);

-tərbiyə funksiyası (məsuliyyət, özünə inam hissi formalaşdırmaq, müəllim və şagirdləri fəallaşdırmaq).

Təlimə nəzarət bir sıra metodlarla həyata keçirilir: sorğu, müsahibə, müşahidə, yoxlama yazı işləri, test yoxlamaları, əməli və qrafik işlərin icrası və s.

Pedaqoji nəzarətin səmərəsi üçün ona bir sıra tələblər verilir:

a) nəzarət zamanı müəllim xeyirxah, diqqətli və qayğıkeş olmalı, pedaqoji takt, dözüm göstərməlidir;

b) nəzarət hərtərəfli olmalı, təlimin həm kəmiyyətini, həm də kefiyyətini aşkara çıxarmağa yönəlməlidir;

c) nəzarət müntəzəm olmalıdır;

ç) nəzarət konkret məqsəd daşımalıdır.

Təlimdə nəzarət yoxlama, uçot və qiymətləndirmə ilə sıx bağlıdır. Yoxlama nəzarət vasitəsidir. Uçot nəzarətin müəyyən sənədlərdə (jurnal, imtahan vərəqi, müvəffəqiyyət cədvəli və s.) əksidir. Qiymət təlim müvəffəqiyyətinin kəmiyyət göstəricisi, balla ifadəsidir.

Yoxlamalar yalnız standartlardan yayınmaları müəyyən etməklə nəticələnmir, onlar eyni zamanda dil normalarının müxtəlif səviyyələrdə tətbiqi səviyyəsini aşkarlayır. Onların sayəsində təlim məqsədləri və vəzifələri dəqiqləşdirilir, bacarıq və vərdişlərin keyfiyyəti müəyyənləşdirilir. Yoxlamalar bir vasitə olaraq xarici dillərin tədrisinin, təlim-tərbiyə prosesinin tərkib hissəsidir. Yoxlama eyni zamanda dərsin bir hissəsidir, şagird nailiyyətinin keyfiyyətinin göstəricisidir. Onun əsas vəzifəsi şagirdlərin dil bacarıqlarının proqram tələblərinə uyğunluğunu, nitq və sosio-mədəni səriştələrinin formalaşması səviyyəsini müəyyən etməkdir. Yoxlamanın köməyi ilə müəllim də öz işinə qiymət verir, istifadə etdiyi metod və üsulların effektivliyini yoxlayır. Şagird üçün yoxlamanın mahiyyəti ondan ibarətdir ki, o, öz fəaliyyətinə tənqidi yanaşa bilir, çatışmazlıqları öyrənir, təlimə münasibəti dəyişir, motivasiya olunur.

İbtidai təhsil pilləsində ingilis dili dərslərində müəllimin nəzarəti və yoxlamaları aşağıdakı imkanları yaradır:

-müəllim ümumilikdə qrup şagirdlərinin və eləcə də ayrı-ayrı şagirdlərin təlim fəaliyyəti barədə informasiya ala bilir;

-müəllim öz iş təcrübəsini şagirdlərin dili mənimsəmə prosesinə uyğunlaşdıra bilir;

-şagirdlər təlim fəaliyyətinin uğurlu alınması üçün müəyyən düzəlişlər etməyə motivləşirlər.

İngilis dili dərslərində yoxlamanın obyektləri aşağıdakılardır:

a) biliklər və onların əsasında formalaşdırılmış bacarıqlar (dil səriştəsi);

b) əldə edilmiş biliklərin və bacarıqların müxtəlif ünsiyyət situasiyalarında tətbiqi (kommunikativ səriştə);

c) dili öyrənilən ölkənin və onun milli xüsusiyyətlərinin öyrənilməsi (sosiomədəni səriştə).

İngilis dilinin tədrisində əsas paktik məqsəd kommunikativ səriştəyə yiyələnmək olduğu üçün nitq bacarıqları əsas yoxlama obyekti, dərslərdə dil materiallarının mənimsənilməsi isə cari yoxlamanın obyekti kimi çıxış edir. Ona görə ingilis dilinin mənimsənilmə səviyyəsini yoxlamaq prosesində əsas diqqət şagirdlərin buraxdıqları səhvlər üzərinə deyil, kommunikativ vəzifənin uğurla həyata keçirilməsi səviyyəsinə yönəldilməlidir. Müvafiq nitq situasiyasında şagirdlərin fikirlərini ifadə etmək və bu prosesdə düzgün dil vasitələrindən seçim etmək onların ingilis dilini hansı səviyyədə mənimsəmələrindən xəbər tutmağa imkan yaradır.

İbtidai təhsil pilləsində planlaşdırılmış nəticələrin yoxlanılması elementar eşidib-anlama, danışıq, yazı və oxu bacarıqlarına aiddir. Bu səbəbdən dərslərdə aparılan fəaliyyət növləri xarici dilin (ingilis dili) tədris fənni kimi xüsusiyyətlərini əks etdirməlidir. Təbii ki, bu dərslərdə yoxlamanın əsas obyekti nitq bacarıqları olmalıdır.

Xarici dil təlimində yoxlamalar, təlim prosesinin başqa komponentləri kimi müəyyən funksiyaları yerinə yetirir. Həmin funksiyalar nəzarətçinin (müəllim) reseptiv-müqayisəli fəaliyyətini ehtiva edir. Bu mənada bir neçə növ nəzarət-yoxlama funksiyaları üzərində dayanmağı vacib sayırıq.

Yoxlamanın öyrədici funksiyası mənisənilmiş materialın sistemləşdirilməsini təmin edir. Belə bir deyim mövcuddur ki, yoxlayaraq biz öyrədirik, səhvləri düzəltməklə isə fəaliyyətin yerinə yetirilməsi yollarını, üsullarını göstəririk. Yoxlama prosesində şagirdlər öyrənilmiş materialları təkrar edir və möhkəmləndirirlər (təkrar

öyrənirlər). Onlar yalnız mexaniki iş görmür, həm də bilik və bacarıqlarını yeni situasiyalarda tətbiq edirlər.

Yoxlamanın nəzarətedici funksiyası. Təlimdə nəzarət bir çox cəhətdən əhəmiyyətlidir. Şagird bu yolla öz təlim uğurları haqda məlumat əldə edir (daxili əks-əlaqə), təlimə səy və məsuliyyəti artırır. Müəllim şagirdlərin təlim səviyyəsi haqda məlumat alır (xarici əks-əlaqə), öz iş metodlarını təkmilləşdirir. Nəzarət müxtəlif növlərdə olur. Keçirilmə vaxtı və həll etdiyi vəzifələrə görə cari (gündəlik), tematik (mövzu və bölmə üzrə), dövri (vaxtaşırı, rüblərin sonunda) və yekun nəzarəti (ilin sonunda) fərqləndirilir.

Yoxlamanın diaqnostik funksiyası dedikdə, alınmış informasiyanın səhvlər və çətinliklərlə bağlılığı nəzərdə tutulur. Bu növ yoxlamanın nəticələri təlimin daha intensiv metodlarının seçilməsinə imkan yaradır.

Yoxlamanın proqnostik funksiyası təlim-tərbiyə prosesində qabaqlayıcı informasiyanın alınmasına xidmət edir. Təhsilin keyfiyyətinin idarə olunması, inkişaf dinamikasının izlənilməsi və proqnozlaşdırılması üçün real vəziyyətin öyrənilməsi vacib hesab edilir. Bu işdə yoxlama mühüm pedaqoji vasitə kimi qəbul edilir. Yoxlama təlim-tərbiyə prosesini təkmilləşdirməyə, təlim prosesinin səmərəliliyini yüksəltməyə, şagirdlərin nələri mənimsədiklərini, nələri öyrəndiklərini, hansı bacarıqlara hansı səviyyədə malik olduqlarını və onlarda hansı keyfiyyət dəyişikliklərinin formalaşdığını müəyyənləşdirməyə obyektiv şərait yaradır.

Yoxlamanın inkişafetdirici funksiyası şagirdlərin fəallığını, yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməyə istiqamətlənmişdir. Bu prosesdə şagirdlərin nitqi, yaddaşı, diqqəti, iradi keyfiyyətləri diqqət mərkəzində saxlanılır.

Yoxlamanın bələdləşmə (oriyentir) funksiyası fərdi olaraq hər bir şagirdin və ya sinif (qrup) şagirdlərinin təlim nəticələrinin keyfiyyəti (mənimsənilmə dərəcəsi) haqda informasiya verməkdən ibarətdir. Burada materialın öyrənilmə və tətbiq edilməsi bacarığı əsas götürülür. Yoxlamanın həmin funksiyası şagirdlərin geriləmə səbəblərini, çatışmayan cəhətlərini müəyyənləşdirir, onların bilik və bacarıqlarının düzgün istiqamətə yönəldilməsini təmin edir.

Yoxlamanın tərbiyəedici funksiyası şagirdlərdə məsuliyyət hissini artırır, təlimə olan münasibəti yaxşı mənada dəyişə bilir. Onlar öz fəaliyyətlərinə (dilöyrənmə) daha ciddi yanaşırlar, özünənəzarətin təsiri altında daha yüksək nəticələr əldə edirlər.

Yoxlamanın idarəedici funksiyası bütün təlim fəaliyyətini əhatə edir. Onun vasitəsilə təlimin məqsədəuyğunluğu və səmərəsi yoxlanılır. Bu fəaliyyət növü müəllimlərin və şagirdlərin qarşılıqlı təsirinə (əks-əlaqə) əsaslanır. Müəllim nəzarətinin əsas istiqaməti şagirdlərin özünənəzarət bacarığının formalaşmasına yönəlir. Metodik ədəbiyyatda özünənəzarətin aşağıdakı aspektləri müəyyənləşdirilmişdir:

1) şəxsiyyətin xüsusiyyətləri;

2) əqli fəaliyyət aktı;

3) təlim fəaliyyətinin komponenti;

4) özünüidarə bacarığının formalaşması;

5) fəaliyyətin, davranışın nizamlanması (37).

Qeyd etmək lazımdır ki, özünənəzarətin əhəmiyyətini başa düşmək şagirdlər üçün xüsusi önəm kəsb edir. Belə ki, şagirdlər bu fəaliyyəti pedaqoji proses kimi, obyektiv hadisə kimi qiymətləndirməyi bacarmalıdırlar. Məhz bu zaman şagirdlər özünənəzarətin əsas mexanizmləri olan özünümüşahidə, özünütəhlil, özünüqiymətləndirmə kimi keyfiyyətləri mənimsəyə bilirlər.

*Yoxlamanın qiymətləndirici funksiyası.* İngilis dili dərslərində qarşılıqlı fəaliyyətdə olan tərəflərin qiymətləndirilməsi son nəticə kimi qəbul edilir. Şagirdlər üçün qiymətləndirmə konkret formada başa düşülür. Müəllimlər bəzən qiymətləndirməni ümumi aspektdə ifadə edə bilir: "bilir, bilmir", "bacarır, bacarmır", "öyrənib, mənimsəyib" və s. Ümumiyyətlə, şagirdlərin qiymətləndirilməsi iki istiqamətdə aparılır. Birinci halda şagirdlərin təlim nəticələri barədə ümumi fikirlər söylənilir, çatışmayan məsələlər müzakirə olunur. İkinci halda hər bir şagird konkret qiymətlə fərqləndirilir. Hər iki halın xüsusiyyətlərindən irəli gələrək müəllim də öz fəaliyyətini dəyərləndirə bilir.

*Yoxlamanın formaları.* Yoxlamalar fərdi, frontal, qrup və cütlərlə iş prosesini əhatə edən fəaliyyətlərlə fərqlənir. Hər hansı iş formasının seçilməsi yoxlamanın obyektindən (dilin aspekti – nitq fəaliyyətinin növü) və növündən (cari, yekun) asılı

olur. Məsələn, dialoji nitq bacarığının formalaşması səviyyəsini yoxlamaq üçün cütlərlə iş prinsipi seçilir. Monoloji nitq bacarığının səviyyəsini müəyyən etmək üçün isə fərdi yoxlamalara üstünlük verilir.

Tədrisin aşağı mərhələsində tapşırıqların yerinə yetirilməsinin düzgünlüyünü aşağıdakı kriteriyalara əsasən yoxlayırlar:

-mətnin məzmunu və alınmış informasiya tamlığı;

-informasiyanın nitq səviyyəsində istifadə olunması;

-nitqin leksik-qrammatik və fonetik-intonasiya xüsusiyyətlərinin nəzərə alınması;

-tapşırıqların yerinə yetirilməsinin məqsədəuyğunluğu.

Xarici dillərin tədrisi prosesində ayrı-ayrı fərdlərin (şagirdlərin) təlim nəticələrinin yoxlanılması əsasən fərdi xarakter daşıdığı üçün fərdi yoxlamaların aparılması vacib bir məsələdir. Fərdi yoxlamanın imkanları genişdir və onun sayəsində hər bir şagirdin bölmə, rüb, dərs ili ərzində yerinə yetirdikləri işlərin və yiyələndikləri bacarıq və vərdişlərin keyfiyyəti barədə məlumat toplamaq olur. Gündəlik fəaliyyətdə, sinif-dərs şəraitində fərdi yoxlamaların şifahi formasından daha çox istifadə olunur. Həmin yoxlamanın yazılı forması dərs ilinin yekunlarına dair tapşırıqların yerinə yetirilməsi prosesində istifadə olunur.

Tədrisin ibtidai pilləsində ingilis dilinin tədrisi prosesində frontal (ümumi) sorğudan (yoxlamadan) geniş istifadə olunur. Bu prosesdə qrup şagirdlərinə eyni zamanda müraciət olunur, ya xorla, ya da fərdi surətdə cavablar alınır, sinfin fəallığı təmin olunur. Aşağı siniflərdə belə yoxlamalar oyun formasında təşkil oluna bilər.

Tədrisin ilkin mərhələsində şagirdlərin nitq bacarıqlarının formalaşması səviyyəsini müəyyən etmək üçün təcrübəli müəllimlər 8-10 dəqiqə müddətində kombinə edilmiş yoxlama növündən istifadə edirlər. Bu prosesdə qrup şagirdlərinin eşidib-anlama bacarıqları da yoxlana bilər.

Başqa bir yoxlama forması şagirdlərin ev tapşırıqlarının yoxlanılmasına aiddir. Bəllidir ki, tədrisin aşağı pilləsində evə verilən tapşırıqlar yazılı formada yerinə yetirilir. Onların yoxlanılması və səhvlərin düzəldilməsi xeyli vaxt aparır. Ona görə, təcrübəli müəllimlər müxtəlif iş üsulları seçir, bəziləri hətta həmin çalışmaları evdə

yoxlayır. Yoxlamanın nəticələri növbəti dərslərdə müzakirə olunur, düzəlişlər edilir və qiymətləndirilir.

Deyilənlərdən çıxış edərək, aparılacaq yoxlamalara qoyulan tələbələrə (qaydalara) əsaslanmaq lazımdır:

1. Yoxlamalar mütəmadi xarakter daşımalıdır.

2. Müəyyən zaman kəsiyində həyata keçirilən yoxlamalar frontal formalı olmalıdır.

3. Yoxlanılan materialların həcmi keçilmiş təlim materiallarından çox olmamalıdır.

4. Təlim və yoxlamaların üzvi surətdə bağlılığı nəzərə alınmalı və dərsin konkret məqsədindən asılı olaraq nitq fəaliyyətinin müxtəlif növləri üzrə yoxlamalar həyata keçirilməlidir.

*Yoxlamanın növləri*. Hər hansı mövzunun (bölmə, hissə) uğurlu mənimsənilmə səviyyəsi sinif-dərs sistemində öyrənilən anlayışların, terminlərin, söz və söz birləşmələrinin, qrammatik strukturların düzgün başa düşülməsi və onların danışıq (nitq) prosesinə tətbiq edilməsi bacarıqlarının formalaşması ilə yoxlanılır. Bu ilkin yoxlama növü kimi qəbul edilmişdir. Həmin proses eyni zamanda ilkin bacarıqların başlanğıc səviyyəsini müəyyənləşdirir.

Cari yoxlamalar hər dərsdə qarşıya qoyulan məqsəd və vəzifələrlə əlaqəli olur. Bu prosesdə yaranan əks-əlaqə təlimin daha səmərəli təşkilinə zəmin yaradır. Cari yoxlamalar sistemli, operativ, məqsədyönlü xarakter daşıyır, müxtəlif formalarda həyata keçirilir. Bu təlim fəaliyyəti düzgün və ardıcıl təşkil edildikdə müəllim və şagirdlərin təlim prosesinə münasibətini tam açıqlayır.

İbtidai təhsil pilləsində cari yoxlamalar əsasən şifahi yoxlamalar vasitəsilə həyata keçirilir. Bu zaman frontal, fərdi, kombinə edilmiş formalardan istifadə olunur. Hazırda aşağı siniflərdə ən çox rollu oyunlardan və testlərdən istifadə olunmaqla şagirdlərin təlim nəticələri barədə aydın təsəvvürə malik olmaq imkanı yaranır.

Bu pillədə aparılan yoxlamalar "açıq" (J.Harmer) tipli suallara cavabların verilməsi ilə müşayiət olunur. Digər metodistlər (S.Filips, S.K.Folomkina, V.A.Vlasenko) bu növ yoxlamaları "özünüyoxlama" kimi adlandırırlar. Burada əsas məqsəd şagirdlərin dil materiallarına olan "münasibətlərini" (A.Maley) aşkar etməkdir. Şagirdlər

"öyrənməyi öyrənir" (Z.M.Cvetkova) və yoxlamalar əsasən hazırlıqlı nitq nümunələri bazasında həyata keçirilir.

Dövrü yoxlamalar təlim-tematik plana uyğun rüblərin sonunda aparılır. Onların məqsədi aşağı sinif şagirdlərinin bilik, bacarıq və vərdişlərinin formalaşması səviyyəsini müəyyən etməkdir. Bu prosesdə tematik yoxlamanın da əhəmiyyəti böyükdür. Belə ki, şagirdlərin müəyyən mövzuları hansı dərəcədə mənimsəməsini müəyyənləşdirmək müəllimlərin iş prinsiplərinə öz təsirini göstərir.

Yekun yoxlamaları təhsilin müəyyən pilləsinin (ibtidai, orta, əsas) nəticələrini aşkarlamaq üçün aparılır. Bu prosesdə yoxlama və qiymətləndirmə obyektləri ingilis dilinin aspektləri (fonetika, leksika, qrammatika) və həmin aspektlər üzrə bacarıq və vərdişlərin (eşidib-anlama, danışıq, oxu, yazı) formalaşması səviyyələri hərtərəfli yoxlanılır və qiymətləndirilir. Başqa sözlə, yekun yoxlamada təhsilin qiymətləndirmə funksiyasına xüsusi diqqət yetirilir. Ona görə də, həmin yoxlamanın materialları (testlər) öyrənilmiş mövzuların leksik və qrammatik xüsusiyyətlərini tam əks etdirir. Əsas məqsəd isə mənimsənilmiş keyfiyyətlərin şagirdlərin kommunikativ səriştələrinə təsirini öyrənməkdir.

Yekun yoxlamanın xüsusiyyətlərini aşağıdakı kimi müəyyənləşdirə bilmişik:

-şəffavlıq. Şagirdlər və onların valideynləri aparılacaq yoxlamanın prosedurları, vəzifələri və məqsədi barədə, eləcə də, qiymətləndirilmə meyarları haqda müfəssəl məlumata malik olurlar.

-sistemlilik. Yoxlama prosesi sistem halında götürülmüş təlim nəticələrinin yoxlanılmasına istiqamətlənir.

-ardıcıllıq. Yoxlama fəaliyyəti mərhələli iş prinsipini əhatə edir və dərslik materiallarının ardıcıl təqdimatına əsaslanır.

-əks-əlaqə. Yoxlamanın nəticələrinə görə qiymətləndirmə prosesində şagirdlərin əldə etdikləri nəticələr təhlil olunur.

-refleksiya. Şagirdlərin və müəllimin fəaliyyətlərinə qiymət verilməsinə imkan yaradır.

Yuxarıda deyilənləri ümumiləşdirmək üçün vizual olaraq aşağıdakı sxemi təqdim edirik:

Funksiyalar

Pedaqoji tələblər

Yoxlama

Metodlar

Obyekt

Formalar

Fənnin təlim xüsusiyyətləri

Şagirdlərin yaş xüsusiyyətləri

Deməli, müxtəlif növ və formalı yoxlamalar ibtidai təhsil pilləsində daxili idarəetmə prosesi olub ingilis dilinin tədrisi keyfiyyətinə davamlı nəzarəti həyata keçirməyə imkan verir. Yoxlamanın nəticələri təhsil fəaliyyətinin güclü və zəif tərəflərini üzə çıxararaq gözlənilən nəticələri (standartlar və kurikulum tələbləri əsasında) əldə etmək üçün praktik təkliflərlə yekunlaşa bilir. Yoxlamanın komponentləri (məlumatın toplanması, məlumatın təhlili, görülən tədbirlər) əsasında həyata keçirilən qiymətləndirmə sistemi ümumi təhsildə bütün fəaliyyətləri hesaba alan və onların müəyyən olunmuş müvafiq standartlar istiqamətində inkişaf etməsini təmin edən bir mexanizm kimi müəyyənləşdirilmişdir.

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

# II FƏSİL

# İBTİDAİ TƏHSİL PİLLƏSİNDƏ ŞAGİRDLƏRİN İNGİLİS DİLİ ÜZRƏ NAİLİYYƏTLƏRİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

## *2.1. Qiymətləndirmə təlim sisteminin əsas komponentlərindən biri kimi*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 yanvar 2009-cu il tarixli qərarı ilə “Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası” təsdiq olunmuşdur. Sənəddə müasir dövrdə şagird nailiyyətlərinin qiymətləndirilməsi sisteminin vəzifələri, əsas xüsusiyyətləri, bu sahədə mövcud olan problemlər Konsepsiyanın yaradılması üçün zəruri səbəblər, əsas qiymətləndirmə növləri, qiymətləndirmə standartlarının və vasitələrinin hazırlanması və sair məsələlər əks olunmuşdur. Konsepsiyada təlim-tərbiyə işlərini müasir dövrün tələblərinə müvafiq qurmaq məqsədilə qiymətləndirmə fəaliyyətinin aşağıdakı tələbləri təmin etməsi qeyd edilir:

-təhsildə müsbət dəyişikliklərin aparılması üçün mühüm vasitə rolunun yerinə yetirilməsi;

-təhsilin keyfiyyəti üçün əsas göstərici olan şagirdin təlim nəticələri haqqında etibarlı məlumatın verilməsi;

-qiymətləndirmə vasitəsilə şagirdin bilik və bacarıqları haqqında kifayət qədər məlumat əldə edildikdən sonra fənn kurikulumlarında və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması;

-təhsildə olan bəzi neqativ hallara qarşı mübarizə vasitəsi funksiyası;

-qiymətləndirmədə yeni yanaşmaların yaddaşa əsaslanan qiymətləndirmənin əksinə olaraq, məntiqi təfəkkür vərdişlərinin inkişafına xidmət etməsi.

Sənəddə qiymətləndirmə fəaliyyətinə qoyulan tələblərin əməli vəzifəsi, hər şeydən əvvəl, məktəblərimizdə təlim-tərbiyə işlərinin məzmun, forma, vasitə və metodlarını təkmilləşdirmək yolu ilə təhsilin keyfiyyətini əsaslı surətdə yaxşılaşdırmaqdan, müəllimlərin yaradıcılığını artırmaqdan və məktəb işlərinin keyfiyyətini bütünlüklə müasir dövrün tələbləri səviyyəsinə qaldırmaqdan ibarətdir.

Hazırda təhsilin keyfiyyətinin müəyyənləşdirilməsi üçün tətbiq olunan qiymətləndirmənin məqsədi aşağıdakı məsələlər haqqında tam aydın təsəvvür əldə etməyə geniş imkanlar yaradar:

-məktəb kurikulumu üzrə şagirdlərin müvəffəqiyyət göstəricilərinin güclü və zəif cəhətlərinin araşdırılması;

-şagirdlərə verilən bilik, bacarıq və vərdişlərin cəmiyyətin tələbatına uyğunluğunun müəyyənləşdirilməsi;

-fənn materiallarının çətinlik səviyyəsinin şagirdlərin fiziki və anlaq səviyyəsinə uyğunluğunun müəyyənləşdirilməsi;

-kurikulumun necə yerinə yetirilməsinə, təhsilalanların təhsilə olan tələbat səviyyəsinin öyrənilməsi;

-şagirdlərin təlim göstəricilərinin fənlər üzrə toplanmış nəticələr əsasında fənn kurikulumunun dəyişilməsinə ehtiyacın olub-olmamasının aydınlaşdırılması üçün müvafiq təkliflərin hazırlanması;

-müxtəlif şəhər, rayon və kənd məktəblərində fənlər üzrə şagirdlərin təlim nailiyyətlərinin müqayisəli təhlilinin aparılması və milli təhsil sistemindəki vəziyyəti əks etdirən rəsmi hesabatların hazırlanması;

-müəllimlər tərəfindən istifadə edilən didaktik vasitələrin, pedaqoji texnologiyaların, təlim strategiyalarının təkmilləşdirilməsi;

-müəllimlərin elmi-pedaqoji hazırlıq səviyyəsinin müəyyənləşdirilməsi və təkmilləşdirilməsi üçün müvafiq tədbirlərin görülməsi;

-təhsil xidmətlərinin keyfiyyət dinamikasının öyrənilməsi;

-təhsilin keyfiyyətli idarə olunmasının səmərəliliyinin müəyyənləşdirilməsi.

Göründüyü kimi, təhsildə qiymətləndirmə sistemi təhsil işçisinin səmərəli fəaliyyətinin üzə çıxarılması və pedaqoji prosesin təkmilləşdirilməsi üçün vaxtında tələb olunan tədbirlərin görülməsi məqsədini daşımalıdır. Çünki qiymətləndirmə pedaqoji prosesi tənzimləməyə, keyfiyyətini yüksəltməyə, həm də mövcud çatışmazlıqlar barədə təhsili idarə edənlərin və valideynlərin məlumatlandırılmasına xidmət edən yeganə pedaqoji vasitə olduğundan, qiymətləndirmənin düzgün təşkili və qiymətləndirmə aparılarkən məqsədin aydın olması təhsilin keyfiyyətinin yüksəldil-

məsində mühüm rol oynayır. Ona görə də ümumtəhsil məktəblərində elmi, pedaqoji və psixoloji cəhətdən əsaslandırılmış monitorinq və qiymətləndirmənin aparılması təhsil prosesinin keyfiyyətinin yüksəldilməsinin ən mühüm şərtlərindən biridır.

Məlum olduğu kimi, ənənəvi və fəal (interaktiv) təlim modelləri bir-birindən qiymətləndirmənin məqsədlərinə, üsul və vasitələrinə, növlərinə, meyarlarına və s. cəhətlərinə görə əsaslı surətdə fərqlənir. Yeni pedaqoji təfəkkürə uyğun qurulan didaktik sistemdə qiymətləndirmə müxtəlif istiqamətlərdə aparılır.

Müasir qiymətləndirmənin xüsusiyyətləri bunlardır:

-təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəldilir və onu idarə edən vacib amil kimi meydana çıxır;

-cari qiymətləndirmənin aradan qaldırılması məzmun standartlarının bütövlükdə mənimsənilməsini və qiymətləndirmənin obyektivliyini təmin edir;

-tədris prosesinin bütün mərhələlərində tətbiq edilir;

-şagirdin nailiyyəti (qazanılan dəyərlər) qiymətləndirilir, inkişafı sistemli şəkildə izlənilir;

-məzmun standartlarının mənimsənilməsi səviyyəsini ölçmək üçün qiymətləndirmə standartları əsas götürülür.

Qeyd etmək lazımdır ki, təlimdə müvəffəqiyyətin hesaba alınması və qiymətləndirilməsi ilə bağlı mərhələlər (bunları komponent kimi də başa düşmək olar) təlim prosesində bir-birindən tam ayrılıqda cərəyan etmir, onlar bir-birilə qarşılıqlı əlaqədə olur, hətta bir-birinə çevrilə bilir, biri digərində iştirak edir.

Tədqiqat göstərir ki, ümumi təhsilin məzmununun yeniləşdirilməsi şagird nailiyyətlərinin qiymətləndirilməsi sahəsində də yeni mexanizmlərin tətbiqini zəruri etmişdir. Təhsildə "qiymətləndirmə" dedikdə, bəziləri bunu təhsilalanın təlim nəticələrinə aid olan məsələ kimi qəbul edirlər. Lakin dünya təcrübəsində təhsilalanın biliyinə verilən qiymət həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul edilir. Ənənəvi qiymətləndirmə məzmunun tərkib hissəsi sayılmadığından, həmişə müəllimin subyektiv mülahizələrinə əsaslanırdı, şagirdlərdə təlimə marağı artırmaq əvəzinə, əksinə azaldır, onların inkişafını sistemli şəkildə izləməyə

imkan vermirdi və bu da, bir qayda olaraq, şagirdləri qiymət almaq xatirinə oxumağa sövq edirdi. Azərbaycanda 5 ballıq qiymətləndirmə şkalasından 9 ballıq şkalaya keçidlə əlaqədar bəzi regionlarda eksperimentlər aparılmışdır. Nəticə göstərmişdir ki, bal sistemindən asılı olmayaraq, tətbiq edilən qiymətləndirmə sistemi şagirdlərin inkişafını sistemli şəkildə izləməyə imkan vermir, şagirdin nailiyyəti keyfiyyət baxımından deyil, kəmiyyət baxımından qiymətləndirilir. Nəticədə şagirddə özünün səviyyəsi barədə dolğun fikir formalaşmır. Eyni zamanda qiymətləndirmənin yalnız məktəbdaxili formasının həyata keçirilməsi, milli və beynəlxalq qiymətləndirmənin tətbiq edilməməsi, məktəblərarası müqayisəyə, milli səviyyədə təhlillərə imkan verməmiş və təhsilin keyfiyyəti barədə etibarlı informasiyanın əldə olunması mümkün olmamışdır.

Tədqiqat onu da sübut edir ki, "şagird nailiyyətlərinin qiymətləndirilməsi" pedaqoji anlayış kimi təhsil leksikonuna yaxın illərdə daxil olmuşdur. Uzun müddət bunun əvəzinə "şagirdlərin bilik, bacarıq və vərdişlərinin qiymətləndirilməsi" anlayışı işlədilmişdir. Bununla belə, qiymətləndirmə dedikdə, bir qayda olaraq, şagirdlərin gündəlik (cari) qiymətləndirilməsi başa düşülmüşdür. Başa düşüləndir ki, belə qiymətləndirmə sistemi mahiyyət etibarı ilə heç bir əhəmiyyət kəsb etmir. Məsələn, ingilis dili üzrə yarımillik və ya illik qiymətlərin çıxarılmasında şagirdlərin aldığı qiymətlərin sayı və nisbiliyi əsas götürülmüşdür. Halbuki, yarım il ərzində ingilis dili fənnindən xeyli mövzular keçirilir. Belə çıxır ki, bütövlükdə yarımillik (illik) mövzuların şagird tərəfindən öyrənilib mənimsənilməsi vəziyyəti müəyyən olunmamış qalır.

Araşdırmalardan aydın olur ki, yeni fənn kurikulumunda (ingilis dili) məzmun standartları ilə yanaşı, qiymətləndirmə standartları da öz əksini tapmışdır. Həmin standartlar məzmun standartlarında ifadə edilmiş təlim nəticələrinə şagirdlərin hansı səviyyədə nail olmalarını qiymətləndirməyə xidmət edir. Bununla əlaqədar dünya təcrübəsinə uyğun surətdə qiymətləndirmənin 4 səviyyədə aparılması təklif edilmişdir. Birinci və ikinci səaiyyələr əksər şagirdlər, üçüncü və dördüncü səviyyələr isə müvafiq olaraq istedadlı şagirdlər üçün nəzərdə tutulur.

Eyni zamanda standartlarda təsbit olunmuş biliklər daşıdıqları mahiyyətə görə 3 kateqoriyaya (deklarativ, prosedural, kontekstual) böləndüyündən onların reallaşdırıl-

ması üzrə tələb edilən bacarıqlar da fərqli müəyyən edilir. Deklarativ biliklər bilavasitə yaddaşa əsaslanır, zəruri informasiyaların, qaydaların, terminlərin mənimsənilməsini nəzərdə tutur. Ona görə də bu proses "öyrənmə" → "anlama" → "bilmə" fəaliyyətləri ilə əlaqədar olur. Prosedural biliklər tətbiq, kontekstual biliklər isə tədqiqatçılıq, yaradıcılıq fəaliyyətləri ilə bağlıdır.

Konseptual sənədlər toplusu olan kurikulumda qeyd olunan qiymətləndirmə komponentlərinin metodik ədəbiyyatda verilən şərhi ilə ingilis dili müəllimlərinin tanışlığı vacib məsələdir. Belə ki, ənənəvi qiymətləndirmə sistemindən fərqli olaraq yeni qiymətləndirmə standartları məntiqi əsasa, intellektual mahiyyətə malikdir, statistik səciyyə daşımır. Həmin sənədlə tanışlıq göstərir ki, müasir yanaşma müəllimdə yeni keyfiyyətlərin formalaşdırılmasını zəruri edir. Onlar qiymətləndirmə məlumatları ilə əlaqədar şagirdlərin nailiyyətlərini və təlimə münasibətlərini, fənn kurikulumlarının xarakterik cəhətlərini, təlim resurslarının bölgüsünü əks etdirən cəhətlər və fəaliyyətlərin icra mexanizmlərini yaxşı bilməlidirlər. Məsələn, xarici dil kurikulumunda qeyd olunan əsas müddəaları diqqətə çatdırmaq istəyirik:

-xarici dil təlimin məqsədlərinə nail olmaq üçün bütün fəaliyyətləri əhatə edir;

-bu sənəd hər bir şagirdin maraq və meyillərini nəzərə almaqla, onlarda müxtəlif bacarıqları və vərdişləri inkişaf etdirməyə istiqamətləri müəyyənləşdirir;

-təlim məqsədlərinin müəyyənləşdirilməsində və nəticələrin reallaşmasında xüsusi metodikanın seçilməsini təmin edir;

-fəndaxili və fənlərarası inteqrasiya, təlim strategiyalarını, hər bir məzmun xəttinə görə şagird bacarığının inkişafını nəzərdə tutur;

-dil və sosial mədəni fikirlər əsasında kommunikativ nitq bacarıqlarını formalaşdırır və s.

Şagirdlərin nailiyyətlərinin hesaba alınmasında toplanan məlumatlar əsasında hər bir təhsil pilləsində nəticələr düzgün qiymətləndirilməlidir. Məsələn, ibtidai təhsil pilləsində eşidib-anlama, nitq, ilkin yazı bacarıqlarının formalaşması, düzgün oxu bacarıqlarının yaradılması və inkişaf etdirilməsi hərtərəfli qiymətləndirilmə mexanizminin həyata keçirilməsi ilə nəticələnir. Onu da demək lazımdır ki, həmin metodik

işlərin aparılması qiymətləndirmə nəticələrinin reallığına, şəffaflığına öz müsbət təsirini göstərir.

Kurikulumun tətbiqində qiymətləndirmə standartları müəyyən meyarlara istinad edərək aşağıdakı prinsiplərə əsaslanması vacib sayılır:

-məqsədəuyğunluq;

-nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı əlaqələndirilməsi;

-toplanmış məlumatların keyfiyyətcə müvafiqliyi və etibarlılığının təmin olunması;

-qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq;

-təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin olunması.

İbtidai təhsil pilləsində təlimin məzmun xətti əsasında həyata keçirilən qiymətləndirmə prosesində elementar bacarıqların formalaşması səviyyəsi yoxlanılır və qiymətləndirilir. Bu zaman təlim nəticələri nəzərə alınır:

-gündəlik həyatda və məişətdə istifadə olunan əşyaları xarici dildə adlandıra bilir;

-öyrəndiyi dilin hərf və səs sistemini mənimsəməyi bacarır, oxuyur və yazır;

-sadə nitq etiketləri əsasında ünsiyyət yarada bilir;

-kiçikhəcmli mətnləri oxuyur və məzmununu izah edə bilir;

-təqdim olunan nitq nümunələrini başa düşdüyünü nümayiş etdirir.

Şagird nailiyyətlərinin qiymətləndirilməsi şagirdin biliklərə yiyələnmək, onlardan istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması prosesi kimi qəbul edilir və aşağıdakı məqsədlərə xidmət edir:

-şagirdlərin təlim nəticələrinin (nailiyyətlər və ya geriləmələr) izlənilməsi;

-təlim prosesində qərarların qəbulu;

-şagirdin təlim nəticələrinin qiymətləndirilməsi.

Sistemli proses olan qiymətləndirmə təlim nəticələri ilə maraqlı tərəflər arasında səmərəli əks-əlaqə vasitəsi kimi aşağıdakı komponentləri əhatə etməklə qurulur:

-qiymətləndirmə məlumatları. Bunlara şagirdlərin nailiyyətlərini və təlimə münasibətlərini, müəllimin hazırlıq səviyyəsini, fənn kurikulumlarının xarakterik

cəhətlərini, təlim materiallarının bölgüsünü əks etdirən məlumatlar və fəaliyyətlərin icra mexanizmləri daxildir;

-məlumatların toplanması. Bu proses testlərin (yoxlamaların) keçirilməsi, şagird tapşırıqlarının yoxlanılması, sinifdə müşahidələrin aparılması, fənn kurikulumların icra keyfiyyətinin, şagirdlərin və müəllimlərin fəaliyyətlərinin təhlili, qiymət cədvəlləri və digər məktəb sənədlərinin hazırlanması kimi üsullarla həyata keçirilir;

-qiymətləndirmə nəticələri. Həmin nəticələrdən tədris prosesinin planlaşdırılması və istiqamətləndirilməsi, qiymət ballarının hesablanması, müqayisələrin aparılması, təhsilin bir pilləsindən digərinə keçilməsi, pedaqoji nəzəriyyələrin formalaşdırılması, təhsil siyasətinin qurulması, təhsil resurslarının bölgüsü və tədrisin keyfiyyətinin dəyərləndirilməsi zamanı istifadə olunur.

-qiymətləndirmə standartları. Bu standartlar təhsilin keyfiyyətini qiymətləndirmək üçün əsas meyarları təyin edir, şagird nailiyyətlərinin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi üçün istifadə olunan qiymətləndirilmə üsulları və vasitələrinin keyfiyyətini təsvir edir, qiymətləndirmə prosesinin qanuniliyinə zəmanət verir.

Qəbul edilmiş standartlara uyğun bilik və bacarıqlara nail olmaq üçün şagirdin fəaliyyəti fasiləsiz stimullaşdırılmalı, onların daha yüksək səviyyəli standartları mənimsəməsi üçün müvafiq şərait yaradılmalıdır. Optimal vəziyyətdə heç bir şagirdin tədris ili boyunca geri qalmasına imkan verilməməli, əksinə hər bir şagirdin nailiyyəti diqqət mərkəzində olmalıdır. Bu baxımdan şagird nailiyyətlərinin qiymətləndirilməsi davamlı, dinamik və rəsmi olmayan prosesdir (3).

Bütün növ qiymətləndirilmələrin aparılmasında aşağıdakı prinsiplərə riayət olunur:

-məqsədəuyğunluq. Nəzərdə tutulmuş məqsədlə qiymətləndirmə arasında uzlaşma təmin olunur. Qiymətləndirmə əvvəlcədən planlaşdırılır, onun xidmət edəcəyi məqsədlər müəyyənləşdirilir, şagird haqqında toplanılan zəruri məlumatların mahiyyəti, texniki keyfiyyəti və əsas xüsusiyyətləri göstərilir, məlumatların toplanılması və təhlili üsulları seçilir, veriləcək qərarın mahiyyəti təsvir edilir. Qiymətləndirmənin nəticələri müəyyən olunmuş məqsədləri əks etdirir. Qəbul edilmiş qərarlar və toplanılmış məlumatlar arasında əlaqələrin şəffaflığı təmin edilir. Qiymətləndirmə prosedurları daxilən ardıcıl qurulur və vəhdət təşkil edir;

-nailiyyətlərin və təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi. Müvafiq göstəricilər vasitəsilə təhsil imkanları haqqında aşağıdakı məlumatlar toplanır: müəllimin peşəkarlıq səviyyəsi, təlimin məzmunu, irəliləyişlərin, qiymətləndirmələrin koordinasiya səviyyəsi, təlim üçün ayrılmış vaxt, şagirdin tələblərini ödəyən resurslar və tədris vasitələrinin keyfiyyəti;

-toplanılmış məlumatların keyfiyyətcə müvafiqliyinin və etibarlılığının təmin edilməsi. Məlumatların keyfiyyəti qəbul edilmiş qərar və fəaliyyətlərin münasibliyinə təminat verir. Qiymətləndirmə məqsədləri real seçilir və ölçülə bilən xüsusiyyətlər qiymətləndirilir. Şagirdin nailiyyətləri ona yaradılmış imkan daxilində müəyyən sahədə yerinə yetirdiyi konkret tapşırığın səviyyəsinə görə qiymətləndirilir.

Qiymətləndirmə məqsədləri və nəzərdə tutulmuş müvafiq məlumatlar müxtəlif vaxtlarda istifadə edildikdə belə, eyni qərar verməyə imkan yaradır və kifayət qədər dayanıqlıdır:

-qiymətləndirmədə şəffaflıq, ədalətlilik, qarşılıqlı razılaşma və əməkdaşlıq. Məlumatların toplanılması prosesi, müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları və hətta onun özünün peşəkarlıq səviyyəsi şəffafdır və qiymətləndirmə tapşırıqlarında şablonların, fərziyyələrin, şagirdlərin diqqətini yayındıran digər məsələlərin istifadəsinə yol verilmir. Onlar şagirdlərin maraqlarına və imkanlarına görə müxtəlif kontekstlərdə (etnik xüsusiyyətlər nəzərə alınmamaq şərtilə) qurulur. Sağlamlıq imkanları məhdud uşaqlar üçün qiymətləndirmə tapşırıqları müvafiq qaydada uyğunlaşdırılır. Qiymət mükəmməl və düşünülmüş, məqsədəmüvafiq, tədris proqramlarına və digər normativ sənədlərə müvafiq verilir;

-təlim fəaliyyətində qiymətləndirmə nəticələrinin inkişafetdirici rolunun təmin edilməsi. Nəticələr əsasında sinifdaxili fəaliyyətlər təşkil edilir, kurikulumun hazırlanması və idarə edilməsi (təhsilin məzmun münasibliyinin tənzimlənməsi, məzmunda şagird maraqlarının təmin edilməsi, arzuolunan təlim nəticələrinin mənimsənilməsi üçün fəaliyyətlərin və seçilmiş tapşırıqların səmərəliliyi, onların şagird bacarıqlarının inkişafında əhəmiyyətinin təmin edilməsi) həyata keçirilir. Şagird tədqiqatçılığının inkişaf etdirilməsi, onun idrak qabiliyyətlərinin qiymətləndirilməsi (müəyyən qanunauyğunluğun başa düşüldüyünü əks etdirən hissəni seçmək və ya sorğu keçirmək

bacarığı, qavramanın təsdiqini əks etdirən şifahi, yazılı və ya təsviri tapşırıq nümunəsini yerinə yetirmək bacarığı, yerinə yetirilən tapşırıq nümunəsində tənqidi təhlil aparmaq bacarığı, digər şagirdlərin yerinə yetirdiyi tapşırıq nümunələrində səmərəli tənqidi təhlil aparmaq bacarığı) aparılır.

Məzmun və qiymət standartları təyin edildikdən sonra şagirdlərin və müəllimlərin qarşılıqlı fəaliyyət məqsədləri tam aydın olur və müəllim şagirdyönümlü təlim mühiti yarada bilir, tədris prosesində şagirdlər aktiv qarşılıqlı əməkdaşlıq şəraitində bir-birilərinə təsir edərək uğurlu təlim nəticələri əldə edirlər.

Şərh etməyə çalışdığımız müddəaların reallaşdırılma prosesini aşağıdakı sxem vasitəsi ilə təqdim edirik:

| **Məzmun standartları** | **Təlim məqsədləri** | **Təlim mühiti** | **Təlim prosesi** | **Təlimin nəticəsi** | **Qiymətləndirmə** |
|---|---|---|---|---|---|

Tədris prosesinin yuxarıda göstərilən strukturda xarakterizə edilməsi deməyə əsas verir ki, bir neçə fəaliyyət sahəsi inteqrativ olaraq bir-birini izləyir. Nəticədə düzgün həyata keçirilmiş qiymətləndirmənin nəticələri müəllimin və şagirdlərin fəaliyyəti barədə tam təsəvvür yarada bilir. Şagird nailiyyətlərinin qiymətləndirilməsi onun biliklərə yiyələnmək, öyrəndiklərindən istifadə etmək, nəticə çıxarmaq bacarıqları haqqında məlumatların toplanması kimi qəbul edilir. Təlimin bu komponenti şagird nailiyyətinin, həm də gerilənməsinin izlənilməsi, tədris prosesində müvafiq dəyişikliklərin edilməsi bütövlükdə qiymətləndirilmə məqsədlərinə xidmət edir.

A.Əhmədov, T.Şərifov və A.Abbasov qiymətləndirmə və təlim prosesinə təhsilin qarşılıqlı əlaqədə olan iki tərəfi kimi baxır (3). Onlar hesab edir ki, çox geniş əhatə dairəsinə və funksiyalara malik olan qiymətləndirmə müəyyən mərhələlərdə təlim prosesinin əsas komponentlərindən birinə çevrilir.

Monitorinq və qiymətləndirmə şöbəsinin Milli qiymətləndirmə tədqiqatları proqramının rəhbəri N.Mehdiyeva “Kurikulum” (2009, №2) elmi-metodik jurnalında çap etdirdiyi məqaləsində yazır: *“Şagird nailiyyətlərinin qiymətləndirilməsi təhsil prosesi haqqında məlumatların toplanması və təhlili ilə müşayiət olunan fasiləsiz*

*metodik prosesdir. Bu prosesdə şagirdlərin nəticələrinin standartlara, standartların isə cəmiyyətin tələblərinə uyğunluğu müəyyənləşdirilir”* (7, s.16).

Məqalə müəllifi müxtəlif (inkişaf etmiş) ölkələrdə qəbul olunmuş qiymətləndirmə standartlarına münasibətini A.C.Nitkonun “Educational assessment of children” kitabında təqdim olunmuş müddəalara əsasən bildirir:

1) bütün standartlar eyni dərəcədə əhəmiyyətli deyil;

2) standart hazırlanarkən “bilmək yaxşı olardı” yox, “bunu bilmək vacibdir” prinsipi ilə hərəkət etmək lazımdır;

3) şagirdə gələcək həyatında lazım olan, tədrisi nəzərdə tutulan və qiymətləndirilməsi planlaşdırılan bilik və bacarıqlar standartlarda inteqrativ şəkildə əks olunmalıdır.

N.Mehdiyevanın qənaəti belədir: *“qiymətləndirmə müəllimin öyrətmə, şagirdin öyrənmə və təhsilin idarə olunması prosesində əhəmiyyətli rola malikdir”* (7, s.17).

Deyilənlər əsasında şagird nailiyyətlərinin qiymətləndirilməsinin dövrü şəkildə bütün prosesləri necə əlaqələndirdiyini aşağıdakı sxemdən görmək olar:



Sxemdən göründüyü kimi, təlim prosesi fənlər üzrə müəyyən edilmiş təlim nəticələri (standartlar) əsasında qurulur. Şagirdlərin nəzərdə tutulan təlim nəticələrinə necə yiyələnməsi qiymətləndirilir və nəticələr təhlil olunur. Həmin təhlil əsasında təlim nəticələri və qiymətləndirmə üsullarının dəyişdirilməsi və ya təkmilləşdirilməsi haqqında qərar çıxarılır.

İnteraktiv təlimin təşkilinə dair müəllimlər üçün vəsait hazırlamış Z.Veysova ənənvi və fəal (interaktiv) təlimdə qiymətləndirmə fəaliyyətinə aşağıdakı kimi dəyər vermişdir. Ənənəvi olaraq şagirdlərin nailiyyətlərinin qiymətləndirilmə obyekti kimi, əsasən onların əldə etdikləri bilik, bacarıq və vərdişlər götürülür. Bunların qiymətlən-dirilməsi üçün istifadə olunan əsas formalar yoxlama yazı işləri (və ya testlər) və şifahi cavablardır.

Fəal (interaktiv) təlimdə şagirdlərin nailiyyətlərinin qiymətləndirilmə obyektləri sırasına daha biri də, şagirdin şəxsi keyfiyyətləri (məsələn, şagirdin biliyə yiyələnmə həvəsi, sosial keyfiyyətlər, yaradıcılıq, mənəvi dəyərlər və s.) əlavə olunur.

Z.Veysovanın gəldiyi nəticə belədir: *“Bilik, bacarıq və vərdişlərlə yanaşı, şəxsi keyfiyyətlərin qiymətləndirilməsinin nəticələrinin də nəzərə alınması təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verə bilər”* (12, s.32).

Burada təkrar da olsa, qeyd etmək yerinə düşür ki, *“düzgün həyata keçirilmiş qiy-mətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda, planlaşdırmada və dərsliklərdə müvafiq dəyişikliklərin aparılması zərurəti haqqında qərar qəbul etməyə imkan verir”* (2, s.22).

C.Skrivener “Öyrətmənin öyrənilməsi” (Learning Teaching) kitabında ibtidai təhsil pilləsində şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsində müəllimlərin obyek-tiv və subyektiv yanaşmalarını diqqət mərkəzinə çəkir və onların xüsusi əhəmiyyətini qeyd edir. O, göstərir ki, obyektiv qiymətləndirmə daha çox dil materialının mənimsənilmə səviyyəsinə, subyektiv qiymətləndirmə isə əksər hallarda inteqrativ bacarıqların formalaşması səviyyəsinə aid olur. Başqa sözlə, qiymətləndirilmə prose-sində təhsil imkanlarının qarşılıqlı dəyərləndirilməsi ön plana çəkilir (39, s.180).

C.Riçards və V.Renandya şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsində autentik qiymətləndirmə (authentic assessment) proseduruna üstünlük verməyi

tövsiyə edirlər (37, s.335). Onların təqdim etdiyi alternativ qiymətləndirilmə mexanizmi qeyri-ənənəvi xarakter daşıyır və təhsildə artıq formalaşmış yeni paradiqmalara uyğun gəlir. Bunu aşağıdakı fərqlərdən daha aydın görmək olur:

| **Köhnə paradiqma** | **Yeni paradiqma** |
|---|---|
| 1. Dilöyrənmədə məqsəd dil bilgilərinə yiyələnməkdir | 1. Məqsəd kommunikativliyi təmin etməkdir |
| 2. Tədris müəllim yönümlüdür | 2. Tədris təhsilalan yönümlüdür |
| 3. Ayrı-ayrı bacarıqlar formalaşdırılır | 3. İnteqrativ bacarıqlar |
| 4. Nəticəyönümlü tədrisə üstünlük verilir | 4. Prosesyönümlü tədris |
| 5. Suallara bir düzgün cavabın verilməsi | 5. Açıq tipli suallar, bir neçə variantın seçilməsi |
| 6. Testlər yoxlama vasitəsi kimi | 6. Həm də öyrədici testlər |

Müqayisələrdən göründüyü kimi, şagird nailiyyətlərinin qiymətləndirilməsindən kənarda heç bir fəaliyyət növü yoxdur. Növündən və formasından asılı olmayaraq qiymətləndirmə üsulları təlim sisteminin digər üsulları sırasında xüsusi yerə və əhəmiyyətə malikdir.

Həmin antalogiyada (An Anthology of Current Practice) İ.Hinql və V.Lininqtonun "English Proficiency Test: The Oral Component of a Primary School" adlı məqaləsi ilə tanış olduq. Məqalə müəllifləri aşağı sinif şagirdlərinin qiymətləndirilməsində kommunikativ (ünsiyyət) bacarıqların formalaşması səviyyəsini şifahi üsullarla yoxlamaq və qiymətləndirmək yollarını göstərmişlər. Diqqət çəkən məqam ondan ibarətdir ki, onlar yoxlama və qiymətləndirmə kriteriyalarının müəyyənləşdirilməsini təlim materiallarına dair deyil, şagirdlərin fərdi xüsusiyyətlərinə (bacarıqlarına) əsasən vacib sayırlar (37, s.354).

C.Villis başqalarından fərqli olaraq tədris prosesində tapşırıq əsaslı (task-based learning) dilöyrənmə yanaşmasına üstünlük verdiyi üçün, şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsində də xüsusi tapşırıqlar sistemindən istifadə olunmasını məsləhət görür (41, s.142). Müəllif bu prosesdə cütlərlə iş və qrup şəklində fəaliyyətin yoxlanılması və qiymətləndirilməsi məsələlərinə önəm verir. C.Villis aşağı sinif şagirdlərinin əldə etdikləri bilikləri tətbiq edə bilmək bacarığının

formalaşma səviyyəsini qiymətləndirməyi əsas hesab edir. O, sübut etməyə çalışır ki, şagirdlərin bilik və bacarıqlarını yoxlamaq üçün seçilmiş tapşırıqlar qiymətləndirmə üsuludur, test tapşarıqları isə qiymətləndirmə vasitəsidir (41, s.143).

Tanınmış metodist C.Harmer göstərir ki, müxtəlif növ qiymətləndirmə vasitəsi ingilis dili fənninin məzmunundakı bilikləri əhatə etməklə daha çox tətbiqi bacarıqları yoxlamağa xidmət edir (33, s.384). O, göstərir ki, qiymətləndirmə şagirdin məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri müəyyənləşdirmək, onları aradan qaldırmaq və şagirdi istiqamətləndirmək məqsədilə aparılır. C.Harmer reseptiv və produktiv bacarıqların formalaşma səviyyəsini qiymətləndirmək üçün xüsusi yoxlama vasitələrindən istifadə olunmasını tövsiyə edir.

Digər tanınmış metodist Penni Ur hər şeydən əvvəl, qiymətləndirmə prosesində işlədilən "assessment" (of learner performance), "evaluation" (of innovation or change in, for example, school organization or a course syllabus) və "appraisal" (of teacher performance) terminlərinin məna çalarlarına aydınlıq gətirir (40, s.244). Müəllif qiymətləndirmə fəaliyyətində dörd komponenti əsas götürür:

1. Müəllimin qiymətləndirməsi. Müəllim təhsilalanın hərtərəfli bilik və bacarıq səviyyəsini müxtəlif üsullarla yoxlayır və subyektiv qiymətləndirir.

2. Davamlı qiymətləndirmə. Müəllim gündəlik qiymətləndirmə sistemi əsasında ilboyu şagird irəliləyişlərini və geriləmələrini izləyir, yekun qiymətləndirməyə nail olur.

3. Özünüqiymətləndirmə. Müəllim fəaliyyətin qiymətləndirilməsi zamanı istifadə olunan meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların işinin necə qiymətləndiriləcəyini və onlardan nələrin tələb olunacağını aydın şəkildə göstərməklə konkret məqsəd və tələbləri müəyyən edir. Şagirdlər həmin təlimatlara əsasən öz fəaliyyətlərinə münasibət bildirir, özlərini qiymətləndirirlər.

4. Portfolio. Portfolio şagirdlərin fərdi təlim nailiyyətlərinin sənədləşdirilmiş vasitəsidir. Həmin sənədlər əsasında şagirdlərin təlim nəticələri daha obyektiv qiymətləndirilə bilir.

"Fundamental Considerations in Language Testing" kitabının müəllifi L.F.Baçman yazır ki, şagird nailiyyətlərinin nəticələrinin qiymətləndirilməsi prosesində ardıcıllıq,

sistemlilik prinsiplərinin pozulması təbiidir. Ona görə ki, həmin prosesdə bir neçə əməliyyat (measurement, test, evaluation) həyata keçirilir və onların hər biri daxili (inner) xüsusiyyətlərə malikdir. Həmin sözlər sinonimlik yarada bilsələr də, tətbiq sahələrinə və qiymətləndirmənin formasına görə müxtəlif məna daşıyırlar (27, s.18). Müəllif tövsiyə edir ki, təlim nəticələrinin düzgün qiymətləndirilməsi üçün qiymətləndirmə mərhələləri gözlənilməlidir.

Yuxarıda deyilənlərdən aydın olur ki, qiymət problemi və qiymətləndirmə fəaliyyəti həm pedaqoji nəzəriyyədə, həm də pedaqoji praktikada ən aktual problemlərdəndir. Araşdırmalar göstərir ki, bu problem müxtəlif dövrlərdə şagirdlərin təhsilinə və tərbiyəsinə, onların təlim nəticələrinə, nəticələrin keyfiyyətinə təsirsiz qalmamışdır. Tarixən qiymətləndirilmə fəaliyyətinə, onun ifadə vasitələrinə (sözlə, rəqəmlə) yanaşmalar müxtəlif olmuşdur. Qiymətləndirilmə kriteriyalarını da nəzərə alsaq, demək olar ki, şagird nailiyyətlərinin qiymətləndirilməsi müəllimlərin subyektiv münasibətlərinin nəticəsində mümkün olmuşdur. Şübhəsiz, belə halda yalnız şagirdlərin cavabları (şifahi və ya yazılı) qiymətləndirilmiş, onlar şəxsi keyfiyyətləri nəzərə alınmamışdır.

Müasir dövrdə təhsilin müxtəlif pillələrində təhsil alanların müvəffəqiyyəti ümumtəhsil sistemi üçün qəbul edilmiş Qiymətləndirmə Kosepsiyasının müvafiq müddəalarına əsasən yoxlanılır və qiymətləndirilir. Həmin müddəalar xarici dil kurikulumunda öz əksini tam tapmışdır.

I-IV siniflər üzrə ingilis dili fənnindən kurikulumda məzmun standartları və onların mənimsənilməsi üçün istifadə olunan strategiyalarla yanaşı, nail olunmuş təlim nəticələrinin, əldə edilmiş bilik və bacarıqların qiymətləndirilməsi üçün müvafiq qiymətləndirmə standartlarının nümunələri də əhatə olunur.

Məzmun standartları inteqrativ təlim nəticələri olub şagirdin müvafiq bilik, bacarıq və dəyərlərə nail olmaqla səviyyəcə dəyişməsini təmin edir.

Qiymətləndirmə standartları məzmun standartlarının hansı səviyyədə reallaşdığını yoxlamaqla baş vermiş dəyişikliklərin dərəcəsini müəyyən edir. Həmin standartların təyin edilməsində imtahana əsaslanan metod vasitəsilə müvafiq siniflər üzrə milli səviyyədə yekun qiymətləndirmə keçirilir, nəticələr təhlil olunur və onun əsasında standartlar təyin olunur.

Xarici dil kurikulumunda şagird nailiyyətlərinin hesaba alınması minimum (hagirdlərin əksəriyyəti tərəfindən əldə olunan nəticələr) və yüksək (şagirdlərin ən yaxşı halda 30%-i tərəfindən əldə olunan nəticələr) standartlar əsasında təyin edilir.

Qiymətləndirmə standartlarının təyin edilməsində kurikulumyönümlü metoda daha çox üstünlük verilir. Yəni qiymətləndirmə standartları milli kurikulumda əks olunmuş nailiyyətlərə uyğun hazırlanır və faktik olaraq aşağı sinif şagirdlərinin nələri bacarıqlarına dair qiymətlərə deyil, mütəxəssis mühakimələrinə əsaslanır.

Qiymətləndirmə standartları bir neçə səviyyə üzrə qiymətləndirmə sxemləri şəklində hazırlanır. Qiymətləndirmə sxemləri xüsusi növ qiymətləndirmə şkalasıdır və müəyyən məsələləri (obyektiv, məzmun, aspektlər və s.) əhatə edir. Onlar mahiyyət etibarı ilə iki növə ayrılır:

-holistik qiymətləndirmə sxemləri şagirdin fəaliyyəti (təlim müvəffəqiyyəti) barədə ümumi təəssürat yaradır və əksər hallarda fəaliyyət səviyyələrini əks etdirən 4-5 ballıq şkalaya əsaslanır. Başqa sözlə, həmin sxemlər sürətli yoxlama və qiymətləndirmə aparmaqla şagird nailiyyətləri ilə bağlı ümumi mənzərəni təsvir edir.

Analitik qiymətləndirmə sxemləri isə şagirdin ayrı-ayrı fəaliyyət sahələri (oxu, yazı, danışıq, eşidib-anlama, tərcümə) üzrə qiymətlərini təyin edir. Bu prosesdə şagirdlərin fəaliyyəti ardıcıl qiymətləndirilməklə onların nailiyyətləri haqqında daha ətraflı informasiya əldə edilir. Nəzərə almaq lazımdır ki, bu növ qiymətləndirmənin həyata keçirilməsi üçün daha çox vaxt tələb olunur.

Xarici dil fənn kurikulumunda qiymətləndirmə sxemlərinin elementləri aşağıdakı kimi təqdim olunur:

-qiymətləndiriləcək əsas sahələr;

-nailiyyətin müxtəlif səviyyələrini dəyərləndirmək üçün qiymətləndirmə şkalası;

-səviyyə üzrə etiket: nailiyyət səviyyəsini təsvir edən söz və ya rəqəm;

-səviyyə deskriptoru: nailiyyət səviyyəsini daha müfəssəl təsvir edən söz (ifadə);

-səviyyə indikatorları: hər bir nailiyyət səviyyəsi üzrə diqqət yetirilmə məsələsinə aid konkret nümunələr;

-standart: nail olunması nəzərdə tutulan nəticə.

## Qiymətləndirmə standartlarının komponentləri




Qeyd etmək lazımdır ki, produktiv və obyektiv qiymətləndirmənin həyata keçirilməsi üçün yuxarıda göstərilən və nəzərə alınası məsələlərlə yanaşı, aşağı sinif şagirdlərinin məzmun standartlarına hansı səviyyədə nail olduğunu ölçmək və qazanılmış bacarıqlar üzrə müxtəlif formalı qiymətləndirmələr aparmaq üçün qiymətləndirmə vasitələrinin hazırlanması da xüsusi əhəmiyyət kəsb edir.

### *2.2. İbtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə təlim nəticələrinin qiymətləndirilməsi üsulları*

Həyatda hər bir fəaliyyət sahəsinin, prosesin öz fəlsəfəsi olduğu kimi, təhsil sistemində qiymətləndirmə də mahiyyət etibarı ilə öz fəlsəfi məna tutumuna malikdir. Heç şübhəsiz, yerinə yetirilən işlərin qiymətləndirilməsinin fəlsəfəsi özündə keyfiyyətin müəyyən edilməsində (idarə olunmasında) başlıca amil kimi çıxış etməsini, onun yüksəldilməsi ilə əlaqədar ən zəruri qərarların qəbul edilməsi üçün etibarlı mənbə olmasını ehtiva edir.

"Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası" adlı sənəddə ölkəmizdə hərtərəfli qiymətləndirməni həyata keçirmək üçün istiqamətlər müəyyən edilmişdir (1). Müasir qiymətləndirmə sisteminin, onun tətbiq edilməsi-

nin təlim prosesinin tərkib hissəsini təşkil etməsi və onun haqqında məlumat bazası olması, bütövlükdə təlimin strategiyasını müəyyən etməsi, dəqiq müəyyənləşdirilmiş standartlara və kriteriyalara əsaslanması, eləcə də, həmin məsələlərin mərkəzində şagird şəxsiyyətinin dayanması qiymətləndirmənin didaktik-metodik əsasını təşkil edir.

Eyni zamanda, qiymətləndirmənin nəticələri müəllimin fəaliyyəti, bu fəaliyyətin şagirdlərin tələbatına nə dərəcədə cavab verməsi, habelə kurikulumda (tədris proqramı), planlaşdırmada və dərsliklərdə müvafiq (zəruri) dəyişikliklərin aparılması zərurəti haqqında qərarlar qəbul etmək üçün etibarlı mənbə rolunu oynayır.

Digər tərəfdən, qiymətləndirmə şagird haqqında məlumat toplamağa, onların zəif və güclü tərəflərini müəyyən etməyə imkan verir ki, bu da müəllimə dərslərdə istifadə edəcəyi təlim üsullarını standartlara və şagirdlərin səviyyəsinə uyğun müəyyənləşdirməyə kömək edir. Bir faktı da qeyd etmək lazımdır ki, *"bilik, bacarıq və vərdişlərlə yanaşı, şagirdlərin şəxsi keyfiyyətlərinin qiymətləndirilməsinin nəticələrinin də nəzərə alınması təlim prosesinin yekunları haqda tam təsəvvür yaratmağa imkan verə bilər"* (12, s.49). Bir əlavəmiz də, ondan ibarətdir ki, şagirdin biliyinə (fəaliyyətinə) verilən qiymət, həm də müəllimlərin və məktəbin fəaliyyətinə, valideynlərin təhsilə münasibətinə, məktəb rəhbərlərinin peşəkarlıq səviyyəsinə verilən qiymət kimi qəbul olunur.

Bir çox alimlər və metodistlər istər nəzəri, istərsə də təcrübi əsasda bizim tədqiq etdiyimiz problemi tədqiqata cəlb etmiş və onun müxtəlif aspektlərini araşdırmışlar. Eyni zamanda xarici dillərin tədrisi metodikası elmi sahəsində yazılmış dissertasiya, monoqrafiya və metodik vəsaitlərdə xarici dildə təhsilalanların qiymətləndirilməsinə dair maraqlı fikir və ideyalara rast gəlmək mümkündür.

Məlum olduğu kimi, Azərbaycan təhsil sistemi Avropa təhsil sisteminə inteqrasiya prosesindədir. Həmin təhsil sistemində qəbul edilmiş əsas prinsiplərdən biri şagirdyönümlülük prinsipidir. Bu prinsip isə ümumilikdə təhsil sisteminin şagirdlərin maraq, ehtiyac və tələbatları üzərində qurulması, onların yaş, intellektual səviyyələrinə uyğun şəkildə təşkil edilməsini tələb edir. Burada şagirdin öyrədilməsi deyil, daha çox onun öyrənilməsindən (qiymətləndirilməsindən), müəllim tərəfindən biliklərin şagirdlərə ötürülməsi deyil, müvafiq biliklərin təlim prosesində fəal iştirakçı qismində çıxış edən şagirdlər tərəfindən müstəqil surətdə mənimsənilməsindən və özlərini qiymətləndir-

mədən söhbət gedir. Müvafiq olaraq, bu gün aşağı siniflərdə şagirdlərin təlim nailiyyətlərindən və onların qiymətləndirilməsindən danışarkən, şagirdləri təlim prosesinin idarə olunmasına cəlb etməklə, onların özlərini və başqalarını qiymətləndirən qismində çıxış etmələrinin təmin edilməsi nəzərdə tutulur. Bu da xarici dillərin tədrisi metodikasında hal-hazırda mövcud olan və xarici dillərin təlimi prosesini əhəmiyyətli dərəcədə stimullaşdıran "DIY – do it yourself", yəni hər hansı hərəkəti şagirdin özünün yerinə yetirməsi prinsipinin məqsədyönlü, sistemli şəkildə həyata keçirilməsi deməkdir.

Onu da qeyd etmək lazımdır ki, ibtidai təhsil pilləsində şagirdlərin xarici dil üzrə nailiyyətləri səviyyəsinin yoxlanılması və qiymətləndirilməsi sadə görünsə də, özlüyündə çətin prosesdir. İbtidai təhsil pilləsində şagirdlərin əldə etdikləri nailiyyət səviyyəsi dedikdə, xarici dilin fonetik, leksik və qrammatik aspektləri üzərində formalaşan və inkişaf etdirilən eşidib-anlama, danışıq, yazı və oxu bacarıqlarının hansı səviyyədə olması nəzərdə tutulur. Nəzərə almaq lazımdır ki, ibtidai təhsil pilləsində şagirdlərin xarici dil üzrə bilik və bacarıqlara yiyələnməsi mərhələli xarakter daşıyır. Belə ki, birinci və ikinci siniflərdə daha çox eşidib-anlama və danışıq bacarıqları, üçüncü və dördüncü siniflərdə isə, onlarla yanaşı yazı və oxu bacarıqları mənimsədilir və müvafiq olaraq yoxlanılır.

Başqa bir amili də, nəzərə almaq lazımdır ki, ibtidai təhsil pilləsində şagirdlərin xarici dilin müxtəlif aspektləri üzrə bilikləri və bacarıqları səthi formada olur. Onlara lazım olan strukturlar, fonetik qaydalar və sözlər məhdud bazada öyrədilir. Ona görə də ibtidai təhsil pilləs ində şagirdlərin nailiyyətlərini yoxlayarkən bu məsələlər diqqətdən yayınmamalıdır.

Apardığımız araşdırmalardan aydın olur ki, tədrisin müxtəlif mərhələlərində təhsilalanların xarici dil üzrə nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi yoxlayıcı, müəyyənedici və öyrədici xarakter daşıyır. Həmin prosesdə ayrı-ayrı fərdlərin (şagird) nailiyyətləri və bütövlükdə təlimin təhsilləndirici vəzifəsinin yerinə yetirilməsi səviyyələri müəyyənləşdirilir. Başqa bir qənaətimiz belədir ki, ibtidai təhsil pilləsində şagird nailiyyətlərinin qiymətləndirilməsi çox məsuliyyətli işdir. Belə ki, qiymətləndirmə prosesi şagirdlərə hər cəhətdən müsbət və ya mənfi təsir göstərə bilər, yəni qiymətləndirmə təlim prosesində motivasiyaedici xarakterə malikdir.

Aşağı sinif şagirdlərinin ingilis dili üzrə nailiyyətlərinin qiymətləndirilməsinin əhəmiyyəti aşağıda göstərilənlərlə şərtlənir:

-müəllimlər qiymətləndirmə prosesində istifadə etdikləri, ümumiyyətlə tədris prosesində tətbiq etdikləri metodik üsulların effektivliyini bilmək istəyirlər, əldə edilmiş nəticələrin yaxşılaşdırılması üçün daha nələrin nəzərə alınmasını, hansı işlərin yerinə yetirilməsinin vacibliyini müəyyən etməyə çalışırlar;

-şagirdlər ingilis dilinə yiyələnmə prosesində şəxsi inkişaflarını görmək istəyirlər;

-valideynlər uşaqlarının təlim nailiyyətləri barədə məlumatlı olmalarını istəyirlər.

Şagirdlərin ingilis dili üzrə bilik və bacarıqları haqqında məlumatların toplanması, yoxlanılması və onların bütövlükdə təlim nailiyyətlərinin qiymətləndirilməsi ibtidai təhsil pilləsində diaqnostik (ilkin səviyyənin müəyyənləşdirilməsi), formativ (irəliləmə və geriləmələrin izlənilməsi) və summativ (yekun, kiçik və böyük) olmaqla üç formada həyata keçirilir. Nəzərə almaq lazımdır ki, qiymətləndirmənin biri digərinə xidmət edən və bir-birini tamamlayan hər üç növü öz mahiyyətinə uyğun olaraq şagirdlərin nailiyyətlərini standartlara əsasən müəyyənləşdirir.

Göstərilən qiymətləndirmə formalarından başqa təhsilin keyfiyyətinə nəzarət etmək üçün müəyyən tədris dövrünün sonunda mütəmadi olaraq həyata keçirilən və şagird nailiyyətlərinin qiymətləndirilməsini təmin edən sistem kimi milli qiymətləndirmə və təhsilin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirilməsi funksiyalarını yerinə yetirən beynəlxalq qiymətləndirmə formalarından da istifadə olunur.

**Qiymətləndirmə**

**Beynəlxalq** **Milli**

**Məktəbdaxili**

**Diaqnostiv** **Summativ**

**Formativ**

“Ümumi təhsil müəssisələrində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi qaydaları”nın layihə variantının ikinci maddəsində göstərilir ki, diaqnostik qiymətləndirmə şagirdin bilik və bacarıqlarının ilkin səviyyəsinin müəyyənləşdirilməsinə və bunun əsasında hər bir şagirdin potensial imkanlarını nəzərə alan təlim strategiyalarının seçilməsinə xidmət edir.

Hər bir müəllim keyfiyyətli dərsə yiyələnmək üçün başlanğıcda özünə “şagirdlərin bilik və bacarıqlarının səviyyəsi necədir”, “tədris edilmiş materialı necə mənimsəyiblər”, “əldə olunmuş bilikləri tətbiq edə bilirlərmi”, “şagirdlərin dərsi yaxşı mənimsəmələri üçün hansı məsələlərə xüsusi diqqət yetirilməlidir” kimi suallar verməlidir.

Məhz bu suallara cavab tapmaq üçün müəllim şagirdin, müvafiq hallarda qrup və ya sinfin hazırkı vəziyyətinə qiymət verməli, yəni diaqnoz qoymalıdır.

Qiymətləndirmə üsulu dedikdə, bu prosesin hansı formada həyata keçirilməsi nəzərdə tutulur. Qiymətləndirmə vasitəsi isə bu prosesdə istifadə olunan alətdir. Aydınlıq üçün deyək ki, bilik və bacarıqları yoxlamaq üçün testləşdirmə qiymətləndirmə üsuludursa, test tapşırıqları qiymətləndirmə vasitəsidir.

Diaqnostik qiymətləndirmə üçün verdiyimiz nümunələr arasında ən populyar və əlverişlisi tapşırıqvermə üsuludur ki, bu üsulu həyata keçirmək üçün müəllim dərs ilinin əvvəlində əvvəlki sinif, dərs ili ərzində isə bəhs və bölmələrə aid çalışmalardan istifadə edir.

Müsahibə üsulu isə müəllimdən bir qədər yaradıcılıq tələb edir. Bu üsulu həyata keçirməkdən ötrü müəllim vasitə kimi özü üçün qeydiyyat vərəqi tərtib edir və burada şagirdlərin yoxlamaq istədiyi bacarıqlarını sadalayır. Məsələn, ingilis dilindən anlama, danışmaq, tələffüz qaydalarına əməl etmək, ünsiyyət qurmaq və s. bacarıqlar yoxlanılır və hər şagirdin adının qarşısında “yenidən izah edilməlidir”, “təkmilləşdirilməlidir” və ya “qənaətbəxşdir” kimi qeydlər edilir. Bu qeydlər barədə şagird və onların valideynlərinin də məlumatlandırılması məqsədəuyğundur.

Valideynlərlə və digər fənn müəllimləri ilə əməkdaşlıq üsulu isə müəllimin şagird haqqında məlumatlarını tamamlamaq üçün əlverişli sayılır. Burada istifadə olunan vasitə sorğu səciyyəli olur və daha çox şagirdi əhatə edən mühit, onun

məktəbdənkənar fəaliyyəti haqqında rəy yaradır. Bu qiymətləndirmədə də müəllim özünün istifadəsi üçün sorğu vərəqi tərtib edir və lazımi nəticələr çıxarır.

Tədris proqramları və şagirdlərin hazırlıq səviyyəsi imkan verdiyi hallarda şagirdlərlə diaqnostik qiymətləndirmə test tapşırıqları vasitəsilə də aparıla bilər.

Məqsəddən asılı olaraq bəzən diaqnostik qiymətləndirmədə müşahidə üsulundan və bu üsul üçün hazırlanan vasitədən-meyar cədvəlindən də istifadə edilir. Müşahidə yolu ilə müəllim şagirdlərin hər birinin inkişaf səviyyəsini müəyyən edir və təlim prosesində strategiyalarla bağlı qərar qəbul edərkən bu məlumatlara arxalanır. Şagirdə hansı səviyyədə ev və sinif tapşırıqlarının verilməsi də bu məlumatlar əsasında müəyyən olunur. Müşahidə üsulu və vasitəsi, adətən, davamlı diaqnostik qiymətləndirmənin obyekti olur. Bu baxımdan diaqnostik qiymətləndirmə forma cəhətdən formativ qiymətləndirməyə yaxınlaşsa da, məqsədinə görə onunla eyniyyət təşkil etmir. Davamlı diaqnostik qiymətləndirmə adətən dərs ilinin əvvəllərində aparılır.

Qeyd edək ki, diaqnostik qiymətləndirmənin aparılma formaları siniflərə uyğun olaraq da dəyişilir. Belə ki, ilk dəfə məktəbə qədəm qoyan şagirdlə aparılan diaqnostik qiymətləndirmə digərlərindən xeyli fərqlənir. Birinci sinfin şagirdi ilə təlim prosesində davamlı diaqnostik qiymətləndirmə aparmaq üçün inkişaf və öyrənmə sahələrinə əsaslanan müşahidə vərəqi aşağıdakı kimi tərtib edilə bilər.

Verilən müşahidə vərəqinə uyğun olaraq müəllim təlimə başlamazdan əvvəl bir neçə gün ərzində I sinif şagirdlərini əsas inkişaf sahələrinə görə müşahidə edir, qiymətləndirir və təlim fəaliyyətini bu nəticələrə uyğun olaraq qurur.

İkinci, üçüncü və s. sinfə gələn şagirdin diaqnostik qiymətləndirilməsi üçün müəllim əvvəlki sinfin təlim standartlarından çıxan məqamları önə çəkir. Şagirdin fənn üzrə əvvəlki illərdə yiyələndiyi bilik və bacarıqlara əsaslanan qiymətləndirmə meyarlarını müəyyən edir və bir-iki həftə ərzində müşahidələr aparır.

Diaqnostik qiymətləndirmənin nəticələri rəsmi sənədlərdə qeyd olunmur, müəllimin şəxsi qeyd dəftərində öz əksini tapır, nəticələr barədə valideynlər, sinif rəhbəri və digər fənn müəllimləri də məlumatlandırılır.

“Ümumi təhsil müəssisələrində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi qaydaları”nın layihə

variantının üçüncü maddəsində göstərilir ki, formativ qiymətləndirmə şagirdin qəbul edilmiş standartların reallaşmasına yönəlmiş irəliləmələrini və geriləmələrini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılır.

Yeni və ənənəvi qiymətləndirmə arasında əsas fərq gündəlik rəqəmli qiymətlərin yazılmaması və şagirdin təlim fəaliyyətinin daim izlənməsidir. Bu izləmələr şagirdin təlim nəticələrinə nail olması və nəticədə summativ qiymətləndirmədə nailiyyət qazanmasına kömək məqsədilə aparılır. Məhz formativ qiymətləndirmə sayəsində şagird gündəlik təlim fəaliyyəti ərzində rəqəmli qiymət almaq üçün deyil, yaxşı nəticə göstərmək üçün çalışır.

Qeyd edək ki, yeni məktəbdaxili qiymətləndirmənin əsas mahiyyəti və ağırlıq mərkəzi məhz formativ qiymətləndirmənin üzərinə düşür. Bu məzmun formativ qiymətləndirmənin adında da aydın əks olunub. Formativ sözü (formative) “formalaşdıran”, “formalaşdırıcı” deməkdir. Formativ qiymətləndirmə təlim nəticələrinin mənimsənilməsi ilə bağlı mütəmadi məlumat toplamaq məqsədilə aparılır. Fənni tədris edən müəllim formativ qiymətləndirməni məzmun standartlarından irəli gələn təlim məqsədləri əsasında hazırladığı meyarlar üzrə dərs ili ərzində müntəzəm olaraq həyata keçirir, nəticədə şagirdin ehtiyaclarını öyrənir, uğur qazana bilməməsinin səbəblərinı araşdırır və onun inkişafının təmin olunması üçün zəruri tədbirlər görür.

Şagirdlərin irəliləyişinin monitorinqi (formativ qiymətləndirmə) vasitəsi ilə tədrisin düzgün istiqamətləndirilməsi həyata keçirilir, alternativ üsul və mənbələrdən istifadə və ya şagirdin daha da irəliləməsi üçün ona əlavə impulsun verilməsi barədə ehtiyaclar müəyyənləşdirilir. Qəbul edilmiş standartların reallaşmasına istiqamətlənən irəliləyişlərin monitorinqi (formativ qiymətləndirmə) sinifdə hər bir şagirdin inkişafının hərəkətverici amilinə, təlimin həlledici komponentinə çevrilir. Müəllim yalnız belə monitorinq vasitəsilə tədris prosesini tənzimləyir, bütün şagirdlərin irəliləyişlərini təmin edir, eyni zamanda uğur qazana bilməyən şagirdlərin ehtiyaclarını öyrənərək onlara əlavə kömək göstərir. Bu mənada şagirdlərin faktiki fəaliyyətinin nəticələri müəllim üçün real indikatora çevrilir. Monitorinqlər müəyyən anlayışların mənimsənildiyini müşahidə etmək və ev tapşırıqlarını nəzərdən keçirməklə, yaxud

başqa formal qiymətləndirmə tipindən istifadə etməklə aparıla bilər. Monitorinqlərin hansı formada aparılmasından asılı olmayaraq, onlar müntəzəm xarakter daşımalıdır.

Formativ qiymətləndirmə təlim prosesinin hər hansı bir mərhələsi üçün müəyyən olunmuş nəticələr əsasında şagirdlərin bilik və bacarıqlarının formalaşma səviyyəsinin qiymətləndirilməsidir. Bu növ qiymətləndirmə tədris prosesinin düzgün istiqamətləndirilməsini və səmərəliliyini, şagirdlərin təlim fəaliyyətində irəliləyişlərinin izlənməsini təmin edir, onların təlim ehtiyaclarının ödənilməsinə lazımi şərait yaradır.

Bu məsələ ilə bağlı 1989-cu ildə yaradılmış Böyük Britaniya Qiymətləndirmə İslahatının Qrup (Assessment Reform Group) üzvləri P.Blək və D.Vilyam göstərirlər ki, tədrisin ilk mərhələsində təlim keyfiyyətini müəyyənləşdirən və inkişaf etdirən beş əsas şərti nəzərə almaq lazımdır:

1) şagirdlərin nailiyyətləri barədə müəllimin rəyi;

2) şagirdlərin təlim fəaliyyətinə fəal cəlb olunması;

3) qiymətləndirmə nəticələrinin tədris prosesində nəzərə alınması;

4) qiymətləndirmənin şagirdlərin motivasiya olunmasındakı rolu;

5) şagirdlərin öz fəaliyyətinə qiymət verə bilmək bacarığı (özünüqiymətləndirmə) (28).

P.X.Şakurov formativ qiymətləndirmənin əhəmiyyətindən danışarkən qeyd edir ki, formativ qiymətləndirmə təlim prosesində şagirdin fəaliyyətini izləmək məqsədi ilə müəllimin müntəzəm olaraq apardığı monitorinqdir. Belə qiymətləndirmə qeyri-formal xarakter daşıyır, məlumatların toplanmasına xidmət edir, öyrədici və inkişafetdirici xüsusiyyətlərə malikdir (7).

Formativ qiymətləndirmə dərsi müşayiət edən prosesdir. İngilis dili fənni üzrə aparılan dərslərdə müəllim belə növ yoxlama aparmaq üçün məzmun standartları əsasında meyarları müəyyənləşdirməlidir. Qiymətləndirmə meyarları birbaşa məzmun standartlarından çıxarılarkən məzmun kənarda qalmamalıdır, çünki məzmun standartlarındakı fəaliyyət konkret dərs mövzusu üzərində icra olunur (2).

Formativ qiymətləndirmə, onun icra mexanizmi ilə əlaqədar apardığımız araşdırmalar zamanı internet saytlarının birində belə bir məlumatla tanış olduq ki, ilk dəfə formativ qiymətləndirmə konsepti 1971-ci ildə B.Blum (B.Bloom) tərəfindən təqdim

edilmişdir. O göstərmişdir ki, formativ qiymətləndirmə təhsilalanın bilik və bacarıqlarının mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləmək, bu zaman qarşıya çıxan problemləri aradan qaldırmaq və təhsilalanı istiqamətləndirmək məqsədilə aparılmışdır. O, ekspertlərin fikirlərini ümumiləşdirərək yazır: *"Most expers now consider formativ assessment as an ongoing part of the teaching and learning process. Formative assessment thus becomes a central element in teaching and learning"* (42).

Başqa bir internet səhifəsində (43) "Formative Summative Assessments in the Classroom" adlı yazıya rast gəlirik. Məktəb təcrübəsi və ingilis dilinin xarici dil kimi öyrənilməsi statusu əsasında məqalə müəllifləri (C.Garrison and M.Ehringhous) göstərirlər ki, formativ və summativ qiymətləndirmə üsulları tez-tez qarışdırılır və müəllimlər tərəfindən düzgün anlaşılmır. *"Hər iki növ qiymətləndirmə sistemi məlumatların toplanmasına (informatin gathering) əsaslansa da, onların arasında fərqlər mövcuddur. Formativ qiymətləndirmə praktikadır, summativ isə praktikanın nəticəsidir"* (43, s.14).

"Ümumi təhsil müəssisələrində, peşə liseylərində məktəbdaxili qiymətləndirmə və şagirdlərin sinifdən-sinfə, səviyyədən-səviyyəyə keçirilməsi qaydaları"nın layihə variantının beşinci və altıncı maddələrində göstərilir ki, summativ qiymətləndirmə təlim prosesində müəyyən mərhələlərə (bəhs və ya bölmənin, yarımilin sonunda) yekun vurmaqla, şagirdin nailiyyət səviyyəsini ölçmək məqsədilə aparılır. Kiçik summativ qiymətləndirmə bəhs və ya bölmələrin sonunda müəllim tərəfindən, böyük summativ qiymətləndirmə isə yarımillərin sonunda ümumi təhsil müəssisəsinin rəhbərliyinin və ya orada yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.

Kiçik summativ qiymətləndirmənin keçirilmə vaxtı tədris planında həftədə həmin dərs üçün nəzərdə tutulan saatların sayından asılı olaraq fərdi şəkildə müəyyən edilir. Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə üçün vasitələr qiymətləndirmə standartları əsasında hazırlanır. Standartın hər səviyyəsinə uyğun olaraq müəyyən sayda suallar nəzərdə tutulur. Şagirdin düzgün cavab verdiyi sualların sayı ilə onun qiyməti müəyyən olunur.

Sualların ümumi sayının 10%-nə düzgün cavab verən “1”, 10% daxil olmaqla 20%-nə düzgün cavab verən “2”, 20% daxil olmaqla 50%-nə düzgün cavab verən “3”, 50% daxil olmaqla 80%-nə düzgün cavab verən “4”, 80% daxil olmaqla 100%-nə düzgün cavab verən şagird “5” qiymətlə qiymətləndirilir. Summativ qiymətləndirmənin nəticələri 5 ballıq qiymət şkalası üzrə (1, 2, 3, 4, 5) rəqəmlə ifadə olunur və qiymətlər jurnala yazılır.

Summativ qiymətləndirmənin keçirilməsi üçün üsullar fənnin məqsədinə uyğun olaraq müəyyənləşir. İngilis dili fənnindən ən əlverişli qiymətləndirmə üsulları testləşmə və yazı, qiymətləndirilmə vasitəsi isə test tapşırıqları, imla, inşa ola bilər.

Yekun (summativ) qiymətləndirmə təlim materiallarında müəyyən olunmuş məqsədlərə şagirdlərin hansı səviyyədə nail olduqlarını müəyyən edir. Yekun (summativ) qiymətləndirmə aşağıdakı suallara cavab verir:

-Şagird materialı bilir və başa düşürmü?

-Bildiklərini tətbiq edə bilirmi?

-Daha irəliyə getmək üçün lazımi səviyyəyə çatmışdırmı?

Yekun (summativ) qiymətləndirmə materialların mənimsənilməsi istiqamətində şagirdin əldə etdiyi irəliləyişləri dəyərləndirir. Bu qiymətləndirmə növü mövzunun, bəhs və bölmənin, yaxud da tədris ilinin sonunda eyni qaydada həyata keçirilir. Yekun (summativ) qiymətləndirmənin ən mühüm cəhəti şagirdlərin mənimsədiklərini tətbiqetmə qabiliyyətinə nə dərəcədə malik olduqlarını aşkara çıxarmaqdır.

Şagirdlərin nailiyyətlərinin qiymətləndirilməsi prosesinin təkmilləşdirilməsi qiymətin iki əsas funksiyasını nəzərə almalıdır:

-şagirddə öz nailiyyətlərini yüksəltmək həvəsini saxlamaq məqsədilə bu və ya digər bilik sahəsində irəliləyiş dərəcəsi barədə şagirdlərə, onun müəllimlərinə və valideynlərə bildirmək (formativ);

-şagirdlərin tədris proqramında qoyulmuş təlim məqsədlərinə/nəticələrinə nail olması dərəcəsi haqqında məlumat vermək (summativ).

Təəsüüf ki, qiymətləndirmənin ənənəvi praktikası ancaq cəmləyici qiymətə əsaslanır. Həm yekun qiyməti, həm də cari qiymət cəmləyici xarakter daşıyır. Bundan başqa qiymətləndirmənin əsas problemlərindən biri yekun qiymətinin cari qiymətdən

asılılığıdır. Yekun qiymətinin verilməsi praktikası şagirdin bütün cari qiymətlərinin ortalanmasından ibarətdir. Bu halda cari qiymət özünün biliklərə doğru hərəkətdə yeni məqsəd və vəzifələrin formalaşdırılması funksiyasını itirir, çünki biliklərin əsl səviyyəsini əks etdirmir. Cari qiymət dəyişməz xarakter alır və şagirdlərin nailiyyətlərinin gələcək qeyri-obyektiv mənzərəsini "formalaşdırmağa" başlayır.

Şagirdin uğursuz öyrənilmiş materialı yenidən cavab verməyə (bununla da əvvəlki cari qiyməti ləğv etməyə) imkanının olmaması aşağıdakılara gətirib çıxarır:

-keçmiş kurs üzrə bilik, bacarıq və dəyərlərin təkmilləşdirilməsinə meyilin əvvəlcədən azalmasına;

-dərs materialının uzunmüddətli deyil, operativ yaddaşa arxalanmaq vərdişinə (biliklərin ümumi, tam mənzərəsini yaratmaq yox, ancaq növbəti dərsə hazırlaşmaq vərdişinə) əsaslanan hissə-hissə mənimsənilməsinə;

-nailiyyətləri sabit olmayan şagirdlərə inamsızlıq hissinin əmələ gəlməsinə, qiymətləndirmənin qeyri-obyektivliyinə və nəticə etibarilə dərsə biganəlik və s. kimi psixoloji mühafizə mexanizmlərinin meydana gəlməsinə.

Bütün bu çatışmazlıqlar cari dərs fəaliyətinə görə verilən cəmləyici qiymətdən fərqli olaraq dəyişən olub təkrar cavabla düzələ bilən formalaşdırıcı (formativ) qiymət vasitəsilə aradan götürülür.

Əgər şagirdin onu qane etməyən qiyməti düzəltməyə hüququ varsa, bunun sayəsində əldə olunan psixoloji nəticələr aşağıdakılardan ibarətdir:

●təsadüfi xoşagəlməz hallardan qorunma hissi;

●daha yaxşı nəticələr əldə etmək imkanı;

●özünütəkmilləşdirməyə, nailiyyətlərini yaxşılaşdırmağa olan həvəsi;

●özünə sabit müsbət münasibəti;

●seçim azadlığı və öz hərəkətlərinə görə məsuliyyət hissi.

Summativ qiymətləndirilmənin üsulları daha çevik və diferensiallaşdırılmış olmalıdır. Onlar imkan daxilində qiymətləndirmə təcrübəsində mövcud olan yoxlamalar və ya testlərlə məhdudlaşmamalıdır. Fənnin xüsusiyyətlərindən asılı olaraq yaradıcı və ya praktiki kompleks tapşırıqlardan istifadə oluna bilər.

Məktəb hər bir uşağa özünü tam mənada şəxsiyyət hiss etmək kimi həyatın ən əsas tələbatını həyata keçirmək üçün yol açmalıdır.

Bütün uşaqların müvəffəqiyyətlə oxuya bilməsi və öz imkanlarını aşkara çıxarması üçün müəllim və tədris prosesinin başqa iştirakçıları tərəfindən nailiyyətlərə həvəsləndirən dayağın olması, onların xeyirxahlığının, uşağın şəxsən maraqlı olmasının əhəmiyyəti az deyildir.

Təlimə müsbət həvəsləndirici təsirin yaradılması təbii idrak tələbatının formalaşması, yarış həvəsinin oyadılması kimi üsullara istinad edilir.

Təəssüf ki, təlim prosesində qiymətin rolu o dərəcədə böyükdür ki, o yeganə təlim motivinə çevrilir. Halbuki qiymət ilk növbədə şagird üçün özünüqiymətləndirmə və özünənəzarət vasitəsi kimi çıxış etməlidir. Özünüqiymətləndirmə vərdişlərini yaratmaq üçün bütün sinif və müəllimin iştirakı ilə qiymətin şagirdin özü tərəfindən qoyulması, eləcə də şagirdlərin bir-birinin işinə qiymət verilməsi üsulunu tətbiq etmək faydalı olar.

Qeyd olunmalıdır ki, interaktivliyə əsaslanan təlim prosesində şagirdlərin özünü və sinfi, hətta bütövlükdə dərsin özünü qiymətləndirməsi imkanları çox genişdir. Yeni təlim metodları ilə işləyən müəllimlər bu qiymətləndirmə üsulundan müntəzəm istifadə edir və çox yaxşı nəticələr əldə edirlər. Bu üsulun tətbiqi nəticəsində şagirdlərdə:

-müstəqillik və özünəinam bacarıqları formalaşır;

-obyektivlik, özünə və yoldaşlarına qarşı tələbkarlıq vərdişləri inkişaf edir;

-ədalətli, əməksevər və özünəgüvənən iradi keyfiyyətlər yaranır.

Qiymətləndirmənin əsas problemlərindən biri obyektiv qiymətin təmin edilə bilməsinin çətinliyidir: şagird qiymətin obyektivliyinə əmin olmalıdır və qiymətin tədris prosesinin real tənzimləyicisi ola bilməsi üçün onun nəyə görə verildiyini dəqiq təsəvvür etməlidir.

Obyektiv qiymət verilməsinə mane olan amillər aşağıdakılardır:

●kəmiyyət xarakterli qiymətlərin verilməsi üçün dəqiq olmayan (şərti) normativlərin mövcudluğu;

●şagirdə daha obyektiv əksəlaqə həyata keçirməyə imkan verən qiymətləndirmənin kəmiyyət meyarlarının differensiallaşdırılmış və daha dəqiq sisteminin işlənib hazırlanmaması.

Formalaşdırıcı (formativ) qiymətin almmasına yönəlmiş işlər:

●yazılı və şifahi sorğu;

●yaradıcı işlər şəklində ola bilər.

Formalaşdırıcı (formativ) qiymətin tətbiq olunması üsullarından biri müasir pedaqogikada mövcud olan fərdi tədrisin dinamikasını əks etdirən və aşağıdakı xüsusiyyətləri əhatə edən metoddur:

1. Hər bir şagirdin müəyyən fənn üzrə tədris proqramına əsasən müəllim tərəfindən nəzərdə tutulmuş uzun dövr üçün (rüb, semestr) kompleks tapşırığı vardır;

2. Bu tapşırıqların yerinə yetirilməsi vaxtı dəqiq müəyyən edilməmişdir: şagird onları cari materialın öyrənilməsi gedişində ondan tez və ya sonra da yerinə yetirə bilər. Əgər şagird hər hansı bir səbəbdən ev tapşırığını vaxtında yerinə yetirməyibsə, o bu tapşırığı sonra yerinə yetirə bilər və ya heç yerinə yetirməyə bilər. Bu azad seçiminə görə məsuliyyəti o özü daşıyır və bununla nailiyyətlərinin istədiyi səviyyəsini müəyyən edir;

3. Tapşırıqların yerinə yetirilməsinin fərdi dinamikası haqqında məlumat sinifdə lövhədən asılır və müəllim orada kimin nə qədər tapşırıq yerinə yetirdiyinin qeyd edir. Qiymətləndirmənin meyarını (neçə tapşırığa görə hansı qiymət verildiyini) bilərək nəzərdə tutulmuş dövrün sonunda hər bir şagird özünün qiymətini əvvəlcədən bilir;

4. Hər bir şagirdin nailiyyətlərinin aşkar olması və bu səbəbdən şagirdin sinifdə yüksək qiymət almağa təbii olaraq can atması (sinifdaxili yarış) tədris proqramının yerinə yetirilməsi üçün psixoloji stimuldur. Beləliklə seçim azadlığına və real meyarlara əsaslanan qiymət özünün formalaşdırıcı funksiyasını yerinə yetirir.

Obyektivliyin təmin edilməsi yollarından biri qiymətləndirmə prosesində şəffaflıq və aşkarlığın aşağıdakı prinsiplərinin gözlənilməsidir:

●şagirdlərin müəllimin istifadə etdiyi qiymətləndirmə meyarları ilə tanışlığı;

●qiymətləndirmə prosesinin aşkarlığı: bu zaman müəllim qiymət verərkən onu əsaslandırmalıdır;

●qarşılıqlı qiymətləndirmə və özünüqiymətləndirmə prosedurаlarından istifadə edilməsi.

Diaqnostik, formativ və summativ qiymətləndirmə ilə yanaşı, şagird nailiyyətlərinin qiymətləndirilməsinin başqa formaları da vardır:

1. Bu üsullardan ən mühümü sözdür: o, müəllimin psixoloji dayağını, təqdirini və tənbehini ifadə edə bilər. Bu üsuldan əsasən ibtidai siniflərdə istifadə olunur, lakin qiymətləndirməyə bu yanaşmanın orta məktəbə tətbiqi də real və məqsədəuyğundur. Qiymətləndirmə prosesinin ən yaxşı göstəricisi verbal (sözlə) qiymətləndirmənin üstün rolu və qiymətin əhəmiyyətinin azalması ola bilər.

2. "Portfolio" sistemi; bu formadan ibtidai siniflərdə geniş istifadə olunur və yaxşı səmərə verir. "Portfolio" sistemi hər şagirdin xüsusi dosyesidir. Burada şagirdə aid olan və aşağıda adları çəkilənlərlə birlikdə bütün məlumat və sənədlər qeydə alınır:

●cari qiymətlər;

●şagirdin dərs fəaliyyəti, onun əhval-ruhiyyəsi, iş qabiliyyəti, yaşıdlarına və yaşlılara münasibəti üzərində gündəlik müşahidələr;

●meydana çıxan problemlərin təsviri və onların təhlili;

●müəllimin şagirdə yanaşmaya düzəlişlər etməsi, onun təliminin fərdiləşməsi istiqamətləri haqqında qeydləri və proqnozları;

●valideynlərlə əlaqələrinin qeydiyyatı, müəllimin onlarla müzakirə etdiyi mövzular, şagirdin ailə şəraiti haqqında qeydlər;

●psixoloqların psixoloji müayinənin nəticələri əsasında rəyi.

İbtidai təhsil pilləsində şagird nailiyyətlərinin qiymətləndirilməsinin əsas göstəricisini onların bilik, bacarıq və dəyərlərin mənimsənilməsi səviyyəsini göstərən 5 fəaliyyət növünə ayırmaq olar:

1) yazılı testlər;

2) şifahi cavablar;

3) ev və müstəqil sinif yoxlama tapşırıqlarr;

4) yaradıcı tapşırıqlar;

5) oyun xaraterli fəaliyyət (viktorina, krossvord həlli və s.)

Məlumdur ki, fəaliyyət növlərinin hər birinin qiymətləndirilməsində öz xüsusiyyəti var. Bu da onlara məxsus meyarların müxtəlifliyindən asılıdır:

-yazılı testlərin qiymətləndirilməsi ümumi test tapşırıqlarının, həmçinin mürəkkəblik dərəcəli test suallarının sayından asılıdır;

-şifahi cavabların qiymətləndirilməsi zamanı cavabların dolğunluğu, əhatəliliyi, konkretliyi, düzgünlüyü, dəqiqliyi, nəticələrin xüsusən nitqin ardıcıllığı və məntiqindən asılıdır;

-sinif və müstəqil ev tapşırıqlarının qiymətləndirmə meyarları hər bir tapşırığın əsasını təşkil edən konkret təlim məqsədindən asılıdır. Onların qiymətləndirilməsi daha çox keyfiyyət xarakteri daşıyır;

-yaradıcı tapşırıqların qiymətləndirilməsi ideyaların məhsuldarlığından, çevikliyindən, orijinallığından, adekvatlığından və başqa yaradıcı tpşırıqların yerinə yetirilməsi göstəricilərindən asılıdır.

Milli qiymətləndirmə təhsilin keyfiyyətinə nəzarət etmək üçün müəyyən tədris dövrünün sonunda mütəmadi olaraq həyata keçirilən və şagird nailiyyətlərinin qiymətləndirilməsini təmin edən sistemdir. Xüsusi təmsiledici seçim etməklə, 4-cü və 9-cu sinif şagirdləri arasında obyektiv testlər, sorğu vərəqələri və müvafiq təlimatlar vasitəsilə bir qayda olaraq, 4-5 ildən bir aparılır və əldə olunan nəticələr kurrikulumun, təlim-tədris prosesinin keyfiyyətinin, təhsildə aparılan digər dəyişikliklərin dəyərləndirilməsinə, təhsilin keyfiyyətinə nəzarətin daha səmərəli həyata keçirilməsinə xidmət edir. Təlimin aparıldığı şərait tədris praktikası və təhsil prosesində iştirak edən tərəflərin münasibətində baş verən dəyişikliklər, həmçinin şagird nailiyyətlərinə təsir edən digər amillər barədə əlavə məlumatların əldə edilməsinə imkan verir.

Milli qiymətləndirmənin məqsədləri aşağıdakılardır:

-şagirdlərin təlim nəticələrində zəif və güclü tərəfləri aşkar etməklə, ümumi mənimsəmə səviyyəsini və onun dinamikasını müəyyənləşdirmək;

-şagirdlərin təlim nəticələrinə təsir edən mümkün amilləri təsvir etmək və nəticələr arasındakı fərqləri müqayisə etmək üçün şagirdlərin, onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənmək;

-ölkədə təhsil siyasətini müəyyənləşdirmək üçün təhsilin vəziyyəti haqqında müvafiq məlumat toplamaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri və təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;

-şagirdin təlim nəticələrinin və irəliləyişlərinin dəyərləndirilməsi vasitəsilə təhsilin dövlət standartlarının monitorinqini aparmaq, təhsil sisteminin məqsədlərinin müvafiqliyini və səmərəliliyini tənzimləmək, sistemin təsir dairəsini genişləndirmək;

-təhsil siyasətini müəyyən edənlərin cavabdehlik səviyyəsini artırmaq.

-ölkədə təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiyyət tərəfindən geniş müzakirəsini təşkil etmək.

Beynəlxalq qiymətləndirmə təhsilin keyfiyyətinin yüksəldilməsi və qiymətləndirilməsi funksiyalarını yerinə yetirir. Burada müqayisəetmə tədqiqatları, monitorinqlər vasitəsilə aparılır, ölkədə təhsilin vəziyyəti haqqında məlumat əldə etmək, həlli tələb olunan daha əhəmiyyətli problemləri üzə çıxarmaq, onları araşdırmaq, nəticələri xarici ölkələrlə müqayisə etmək imkanı yaradılır. Bu qiymətləndirmə şagirdlərin qazanılmış bacarıqlardan istifadəetmə imkanlarının qiymətləndirilməsinə yönəldilmişdir, üç ildən bir həyata keçirilir, iştirakçı ölkələrin şagirdlərinin nəticələri arasındakı fərqləri izah edən amilləri (şagirdlərin və onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini) öyrənməyə və əlavə olaraq müxtəlif tipli problemləri həlletmə bacarıqlarını qiymətləndirməyə xidmət edir.

Beynəlxalq qiymətləndirmə proqramının məqsədləri aşağıdakılardır:

-ölkədə təhsilin vəziyyəti haqqında müvafiq məlumat əldə etmək, beynəlxalq səviyyəli müqayisələr aparmaq, öyrənilməsi və müzakirəsi tələb olunan problemləri, təhsilin inkişafının prioritet istiqamətlərini təyin etmək;

-şagirdlərin nəticələrinə təsir edən mümkün amilləri təsvir etmək, nəticələr arasındakı fərqləri təyin etmək üçün şagirdlərin, onların ailələrinin, təhsil müəssisələri və tədris prosesinin xüsusiyyətlərini öyrənmək;

-təhsilin məzmununun müəyyənləşdirilməsi və nəticəyönümlü yeni kurrikulumun hazırlanması üçün əsas təlim məqsədlərini təyin etmək, kompetensiyalara əsaslanan yanaşmanın məqsədəuyğunluğu istiqamətində tədqiqatlar aparmaq, gözlənilən və nail olunan təlim nəticələrini müqayisə etmək;

-pedaqoji ölçmə nəzəriyyəsinin gündəlik təcrübədə istifadə olunan nəzəri və praktiki məsələlərini öyrənmək;

-müasir qiymətləndirmə vasitələrinin hazırlanmasını, nəticələrin təhlili üsullarını və hesabatlar hazırlanması qaydalarını öyrənmək;

-ölkədə təhsilin keyfiyyətinin qiymətləndirilməsi sisteminin qurulması istiqamətində ümumi orta təhsilin məzmunu üzrə əsas prioritetlərin ictimaiyyət tərəfindən geniş müzakirəsini təşkil etmək.

### *2.3. Aşağı siniflərdə ingilis dili təlimində nəzarət və qiymətləndirilmənin məktəb təcrübəsinin öyrənilməsi*

İbtidai siniflərdə, ingilis dilinin tədrisi vəziyyəti ilə tanış olmaq üçün Bakı şəhəri, Nəsimi rayonu, 164 saylı orta məktəbdə tədris prosesi izlənilmiş, şagirdlərin nailiyyət nəticələri və onların qiymətləndirilməsi məsələləri diqqət mərkəzində saxlanılmışdır. Bu prosesdə ibtidai siniflərdə (əsasən III və IV siniflər) ingilis dilini tədris edən müəllimlərlə (A.Abdurəhmanova, Ş.Yaqubova, Ə.Muradova) söhbət aparıomış, dərs planları müzakirə edilmiş, dərslik və əlavə təlim materialları ilə tanış olmuşuq. Əlbəttə, bizim məqsədimiz tədrisin aşağı mərhələsində şagirdlərin fəaliyyətinə nəzarət və onların təlim nəticələrinin qiymətləndirilməsi olmuşdur.

Məlumdur ki, ən yaxşı məktəb və müəllimlərin iş təcrübəsinin öyrənilməsi, qabaqcıl müəllim-metodistlərin nailiyyətləri əsasında təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi ümumi təlim sisteminin tərkib hissələridir. Bu məsələ ölkəmizdə təhsil sahəsində köklü islahatların, xüsusilə kurikulum və məzmun standartlarının tələblərinə müvafiq yeniliklərin həyata keçirildiyi bir vaxtda xüsusi əhəmiyyət kəsb edir.

Müşahidələrimiz və müvafiq sənədlərin təhlili göstərir ki, qabaqcıl pedaqoji təcrübə anlayışı ilə bağlı vahid fikir yoxdur. Əslində qabaqcıl təcrübə geniş mənada müəllimin peşəkarlığı, onun ustalığı mənasında başa düşülür. Hesab edirik ki, belə müəllimlərin iş təcrübəsinin tətbiqi hələlik müəllimlik fəaliyyətinə başlamamış gənc müəllimlər üçün daha faydalıdır. Bu səbəbdən, bizim məktəblə, onun ibtidai siniflərində ingilis dilini həvəslə tədris edən müəllimləri ilə tanışlıq obyektində müəllimlərin bütün iş sistemi, onların fəanliyyətlərinin ayrı-ayrı istiqamətləri, təlim

və tərbiyə prosesində istifadə etdikləri səmərəli metodların və iş üsullarının xüsusiyyətləri dayanmışdır. Bu prosesdə aşağıdakı göstəricilərə diqqət yetirmişik:

-müəllimin peşə ustalığı, elmi-nəzəri və metodik hazırlığı;

-pedaqoji nailiyyətləri, interaktiv təlim metodlarını və yeni pedaqoji texnologiyaları səylə, məqsədəmüvafiq şəkildə tətbiq etməsi;

-dərslərə hazırlaşması və onların aparılması (gündəlik dərs planı, materialın seçilməsi və düzgün paylanması, iş üsullarının qabaqcadan müəyyənləşdirilməsi);

-işə yaradıcı münasibəti, təşəbbüskarlığı, yenilikçilik xüsusiyyətləri.

Göstərilənlər əsasında müəllimlərin iş təcrübəsinin təhlili və ümumiləşdirilməsinin əsas məqsədi onların müsbət nəticələrə necə nail olmalarını müəyyənləşdirmək olmuşdur.

Biz qeyd etmişdik ki, aşağı siniflərdə ingilis dilinin öyrədilməsi tədris və kommunikativ məqsədlər daşıyır. Şifahi nitq üçün mövzular təlimin məzmununa daxildir. Aşağı siniflərdə təlimin məzmunu problemini müəllimlər haqlı olaraq nitq modelləri vasitəsi ilə həll etməyə çalışırdılar və demək olar ki, bu fəaliyyət potensial ünsiyyət vasitəsinə xidmət edə bilirdi. III və IV siniflərdə şagirdlərin şifahi nitq bacarıqlarının formalaşma səviyyəsi qənaətbəxş hesab edildiyi üçün onların qiymətləndirilməsində nəticələr yüksək olmuşdur. Bizə belə gəlir ki, IV sinif şagirdlərinin ingilis dilini öyrənmə prosesində nitqdən dilə istiqamətlənən fəaliyyət üstünlük təşkil etmişdir. Aydın olmuşdur ki, şagirdlərə şifahi nitq üzrə bacarığı uğurla aşılamaq üçün müəllimlər bacarığın mahiyyətinin nədən ibarət olduğunu və necə yaradıldığını yaxşı bilirlər. Bu prosesdə müəllimlər şagirdlərə ingilis dilində nitqin məzmununu anlatmağa, onların öyrəndikləri dil hadisələrinə əsasən şəxsi fikirlərini ingilis dilində ifadə etməyi öyrətməyə nail ola bilirlər.

Biz tədqiqatın nəzəri hissəsində (I Fəsil) qeyd etmişdir ki, xarici dildə danışıq fəaliyyətinin məqsədi hər şeydən əvvəl ünsiyyət prosesinin yaradılması və davam etdirilməsi üçün müəyyənləşir. Aşağı sinif şagirdlərinə müəyyən söz bazası əsasında şəxsi fikirlərini situativ olaraq ifadə edə bilmək bacarığını aşılamaq danışıq fəaliyyətinin nüvəsini təşkil edir. İbtidai təhsil pilləsində şagirdlər proqram tələbləri əsasında tərtib olunmuş danışığa reaksiya vermək, müəllimin və şagirdlərin dediklərini başa

düşmək, danışıq prosesini başlamaq, onu davam etdirmək və yekunlaşdırmaq bacarığına nail olmaq qabiliyyətlərini nümayiş etdirə bilirlər. Əminliklə qeyd etmək olar ki, ibtidai təhsil səviyyəsində ingilis dilində eşidib-anlama, şifahi nitq (danışıq), ilkin yazı bacarıqlarının formalaşdırılması, düzgün oxu bacarıqlarının yaradılması və inkişaf aspektləri üzrə şagirdlərin yüksək qiymətləndirilməsi də özünü doğruldur.

Müəllimlər aşağı sinif şagirdlərini qiymətləndirmə obyektlərinə görə fərqləndirirlər. Şagirdlər ibtidai təhsil pilləsində ingilis dilinin hərf və hərf birləşmələrini oxuyur, yazır, gündəlik həyatda və məişətdə istifadə olunan əşyaları, habelə onlara aid hərəkət və əlamətləri adlandırır, sadə nitq etiketləri əsasında ünsiyyət yaradır, süjetli şəkillər üzrə nitq nümunələri qurur, kiçikhəcmli mətnləri oxuyur və tərcümə edir.

İngilis dilindən dərs zamanı bu qədər müxtəlif fəaliyyət göstərilərkən, müəllimin nəyi (nələri) necə qiymətləndirəcəyinə münasibəti öyrəndikdə məlum oldu ki, müəllimlərin hamısı qiymətləndiriləcək konkret bacarıq və vərdişlərdən ibarət yoxlama siyahısı hazırlayırlar. Hər bir şagirdin bu bacarıqlara nə dərəcədə yiyələndiyini qiymətləndirərkən, adətən bu siyahılardan qiymətləndirmə meyarı olaraq istifadə edirlər.

Şagirdlərin fərdi surətdə qiymətləndirilməsində olduğu kimi, qrup şəklində işləyən şagirdləri qiymətləndirmə prosesində də müəllimlər dərslərdə üzərində dayanılan mühüm anlayış və faktların cədvəlini hazırlayır. Daha sonra şagirdlər sonra şagirdlər sorğuda, müzakirələrdə və ya danışıqlarında bu anlayış və faktlardan istifadə etdikləri zaman müəllim hər şagirdin bu məlumatlardan istifadə etməsini qeydə alır. Bu cür qiymətləndirmə müəllimə şagirdlərin əldə etdikləri bilikdən istifadə edə bilib-bilmədiyini göstərir və hafizənin yoxlanılmasından daha böyük əhəmiyyət kəsb edir.

Məktəb təcrübəsi bir daha göstərdi ki, şagird nailiyyətlərinin nəticələrinin qiymətləndirilməsi – qiymət balları müxtəlif göstəricilər əsasında verilir. Qiymətləndirmədə nəzərə alınan cəhətlər (gööstəricilər) bunlardır:

a) biliyin həcmi (proqram materialı tam və ya qismən mənimsənilib?);

b) biliyin dərk edilməsi (şüurlu, yoxsa mexaniki öyrənilib?);

c) biliyin tətbiqi (şagird əldə etdiyi bilikləri çalışmalara müstəqil tətbiq edə bilirmi?);

ç) biliyin ifadə olunması (şagird fikirlərini düzgün, sərbəst ifadə edə bilirmi?).

Bu göstəricilərdən çıxış edərək qiymət meyarları müəyyən olunur. İbtidai təhsil pilləsində planlaşdırılmış nəticələrin yoxlanılması və qiymətləndirilməsi elementar eşidib-anlama, danışıq, yazı və oxu bacarıqlarına aiddir. Bu səbəbdən dərslərdə aparılan fəaliyyət növləri ingilis dilinin tədris fənni kimi xüsusiyyətlərini əks etdirməlidir. Təbii ki, həmin dərslərdə yoxlamanın və qiymətləndirmənin əsas obyekti nitq bacarıqları olmalıdır.

Məktəb təcrübəsindən məmnunluq hissi əldə etməyimizdən əlavə, bizi maraqlandıran iki məsələyə münasibət bildirməyi də vacib sayırıq. Onlardan biri, ibtidai təhsil pilləsində şagirdlərin ingilis dili dərslərində özlərini qiymətləndirməsi, digəri isə müəllimlərin şagirdləri «qiymətsiz qiymətləndirmə» məsələləri idi. Aydın olsun deyə, qeyd etməliyik ki, müəllim ingilis dili dərslərində şagir fəaliyyətinin qiymətləndirilməsi zamanı istifadə olunan meyarlarla bağlı şagirdlərin məlumatlandırılmasını, onların dərsdə fəallığının necə qiymətləndirəcəyini və onlardan nələrin tələb olunacağını aydın şəkildə göstərməklə konkret məqsəd və vəziyələri müəyyən edir. Şagird həmin təlimatlara əsasən özlərinin təlim fəaliyyətlərinə münasibət bildirir, başqa sözlə, özlərini qiymətləndirirlər. Müşahidə apardığımız müddətdə, təəssüf ki, həmin vacib məsələyə müəllimlərin münasibətini, şagirdlərin isə şəxsi fikirlərini öyrənə bilmədik.

Qiymətsiz qiymətləndirmə üsulundan istifadə edilməməsi də şagirdlərin motivasiya olunmasına mənfi təsir göstərir. Həmin üsulun üstünlüyü ondan ibarətdir ki, rəqəmli (əyani) Qiymətləndirmədən fərqli olaraq, sözlə qiymətləndirmə mücərrəd təfəkkürə yaxın qiymətləndirmə sayılır. Unutmaq olmaz ki, məktəb hər bir şagirdə özünü tam mənada şəxsiyyət hiss etmək kimi həyatın əsas tələbatını ödəmək üçün yol açmalıdır. Bütün şagirdlərin müvəffəqiyyətlə təhsil alması, bütün fənlər üzrə tam biliklərə, yiyələnməsi və öz imkanlarını aşkara çıxarması üçün müəllimlər tərəfindən nailiyyətlərə həvəsləndirən dayağın olması xüsusi əhəmiyyət kəsb edir.

# NƏTİCƏ

Magistrlik dissertasiya işinin mövzusu ilə əlaqədar olaraq şəxsi müşahidələrimiz, təcrübəmiz və aparılan araşdırmalar əsasında aşağıdakı nəticələrə gəlmişik:

1. Azərbaycan Respublikası Təhsil Nazirliyinin dövlət səviyyəsində apardığı təhsil islahatı Azərbaycan məktəbinin XXI yüzillikdəki mənzərəsini müəyyənləşdirir. Bu islahat proqramı məktəbin qarşısında şagirdi fəallıq obyektindən fəallıq subyektinə çevirmək, müəllimin informasiya daşıyıcısı və ötürücüsü deyil, bələdçi (fasilitator) olması, təhsilin məzmun və formasının yeniləşmə istiqamətində dəyişməsini ön plana çəkir. Bu deyilənlərin həyata keçirilməsi yeni metod və üsulların, interaktiv texnologiya vasitələrinin təhsilə, sinif-dərs sisteminə tətbiqi ilə mümkün ola bilər.

2. Dərs təlim prosesində mühüm yer tutur. Bilik, bacarıq və vərdişlər əsasən dərsdə verilir, şagirdin ahəngdar tərbiyəsinin də əsası (zehni, ideya-mənəvi, estetik, əmək, fiziki və b.) dərslərdə qoyulur. Dərs təlimin və tərbiyənin əsas təşkili forması sayılır. Buna görə də müəllim dərsin nəzəri əsaslarına və təcrübəyə yaxşı yiyələnməli, dərsləri müasir tələblər əsasında qurmağa çalışmalıdır.

3. Xarici dil dərslərini lazımi səviyyədə qurmaq üçün onun tiplərini yaxşı mənimsəmək və düzgün təşkil etmək lazımdır. Dərsin tipləri dərsdə yerinə yetirilən əsas didaktik məqsədə görə müəyyən olunur. Hər bir dərs müəllimin pedaqoji-metodik simasını ifadə edir, müəllimə əsasən apardığı dərslərə görə qiymət verilir. Bunun üçün dərslərə verilən müasir tələbləri bilmək və onları bacarıqla, məqsədəuyğun tətbiq etmək lazımdır.

4. Xarici dil dərslərində yüksək təhsil, inkişaf və tərbiyə səmərəsi əldə edilməlidir. Dərsdə təlim materialının optimal məzmunu müəyyən edilməlidir. Dərsin qarşısında duran məqsəd və vəzifələrdən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək müəllim öyrənilәsi materialın həcmini, çətinlik dərəcəsini, fənlərarası əlaqə imkanlarını müəyyənləşdirməli, dərs zamanı məzmunun tam mənimsənilməsinə nail olmalıdır. Şagirdlərin nail olduqları təlim nəticələri isə düzgün və vaxtında qiymətləndirilməlidir. Təsadüfi deyil ki, kurikulum islahatının ən mühüm keyfiyyət

göstəricisi şagird nailiyyətlərinin qiymətləndirilməsidir. Ümumtəhsil məktəblərinin ibtidai təhsil pilləsində şagird nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi, bu sahədə müasir qiymətləndirmə metodlarından və formalarından istifadəyə geniş yer verilməsi, qiymətləndirmə nəticələrinin təhlilinin bazasında müvafiq dəyişikliklərin aparılması mühüm əhəmiyyət kəsb edir.

5. Təhsilalanların bilik və bacarıqları, şəxsi keyfiyyətləri haqqında məlumatlar toplanması və qiymətləndirmə ibtidai təhsil pilləsində diaqnosti (ilkin səviyyənin qiymətləndirilməsi), formativ (irəliləmə və geriləmələrin izlənilməsi) və summativ (yekun, kiçik və böyük) olmaqla üç formada həyata keçirilir. Qiymətləndirmənin biri digərinə xidmət edən və bir-birini tamamlayan hər üç növü öz mahiyyətinə uyğun olaraq şagirdlərin nailiyyətlərini standartlara əsasən müəyyənləşdirir.

6. Hazırda ənənəvi qiymətləndirmədən fərqli olaraq, tamamilə yeni metod və üsullardan (müsahibə, portfolio, layihə işi, özünüqiymətləndirmə və s.) istifadə olunmaqla xarici dilləri öyrənənlərin nailiyyətləri şagirdyönümlü istiqamətdə yoxlanılır və qiymətləndirilir. Bu dəyişikliklər vasitəsilə şagirdlər tədris prosesinə daha çox cəlb olunurlar və özlərinin öyrənmə prosesinə daha yaxşı nəzarət edə bilirlər.

Tədqiqat göstərir ki, bilik, bacarıq və vərdişlərlə yanaşı, şəxsi keyfiyyətlərin (biliyə yiyələnmək həvəsi, sosial keyfiyyətlər, yaradıcılıq keyfiyyətləri, mənəvi keyfiyyətlər və s.) qiymətləndirilməsinin nəticələrinin də nəzərə alınması təlim prosesinin yekunları haqqında tam təsəvvür yaratmağa imkan verir.

7. Dissertasiyanın birinci fəslində ibtidai təhsil pilləsində ingilis dili dərslərində aparılan yoxlamaların məqsədləri, funksiyaları, növləri və formaları, ikinci fəslində isə aşağı sinif şagirdlərinin ingilis dili üzrə təlim nəticələrinin qiymətləndirilməsi üsulları və ingilis dili təlimində nəzarət və qiymətləndirmənin məktəb təcrübəsinin öyrənilməsi məsələləri araşdırılmışdır.

8. İbtidai təhsil pilləsində planlaşdırılmış nəticələrin yoxlanılması və qiymətləndirilməsi elementar eşidib-anlama, danışıq, yazı və oxu bacarıqlarına aiddir. Bu səbəbdən dərslərdə aparılan fəaliyyət növləri ingilis dilinin tədris fənni kimi xüsusiyyətlərini əks etdirməlidir. Təbii ki, həmin dərslərdə qiymətləndirmənin əsas obyekti kommunikativ nitq bacarıqları olmalıdır.

9. Tədqiqat göstərir ki, ibtidai təhsil pilləsində şagirdlərin ingilis dili üzrə nailiyyətlərinin yoxlanılması və qiymətləndirilməsi yoxlayıcı, müəyyənedici və öyrədici xarakter daşıyır. Həmin prosesdə ayrı-ayrı şagirdlərin nailiyyətləri və bütövlükdə təlimin təhsilləndirici vəzifəsinin yerinə yetirilməsi səviyyələri müəyyənləşdirilir.

10. İbtidai təhsil pilləsində şagirdlərin fəaliyyətinə nəzarət və onların təlim nəticələrinin qiymətləndirilməsi baxımından məktəb təcrübəsi öyrənilmiş, tədqiqatın nəzəri müddəaları praktikada yoxlanılmışdır.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYATIN SİYAHISI

**a) Azərbaycan dilində:**

1. Azərbaycan Respublikasında ümumtəhsil sistemində Qiymətləndirmə Konsepsiyası. “Azərbaycan müəllimi” qəzeti, 6 fevral, 2009.
2. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün xarici dil fənni kurikulumu (I-IX siniflər). Bakı, 2007, 38 s.
3. Əhmədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi // “Kurikulum” jurnalı, 2008(1), s.86-87.
4. Əsgərov Ş.O. Biliyin qiymətləndirilməsi. Təhsil, mədəniyyət, incəsənət. Bakı, 2002, №4, s.3-11.
5. Qardaşov T.B., Cavadov İ.A. Təhsildə monitorinq sistemi və onun növləru. Təhsil Problemləri İnstitutunun elmi əsəsrləri, Bakı, 2004, №1, s.35-38.
6. Hacıyeva T. Məktəbdaxili qiymətləndirmənin aparılması yolları // Kurikulum №2, 2009, s.11-21.
7. Mehdiyeva N. Qiymətləndirmə üsullarından istifadə qaydaları. Kurikulum. Elmi-metodik jurnal. Bakı, 2009(2), s.16-21.
8. Mehrabov A.O., Əliyev A.H. Təhsil sistemində qiymətləndirmə problemi və onun reallaşdırılması imkanları. Təhsil, mədəniyyət, incəsənət. Bakı, 2002, №2, s.2-10.
9. Məmmədzadə R. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: “Müəllim”, 2010, 170 s.
10. Mərdanov M.C., Ağamalıyev R.A. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı, Çaşıoğlu, 2003, 416 s.
11. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı, Qanun, 2010.
12. Veysova Z. Fəal/interaktiv təlim. Müəllimlər üçün vəsait. UNİCEF, Bakı, 2007, 147 s.

**b) Rus dilində:**


13. Абасов З.С. От оценки учителя к самооценке ученика // Директор школы. 2006, №2, с.63.
14. Алешин Л.И. Контроль знаний без традиционных оценок как элемент совершенствования методов обучения // Иностранные языки в школе. 2003, №4, с.29.
15. Биболетова М.З. Особенности итоговой оценки достижения планируемых результатов ао английскому языку в начальной школе / Биболетова М.З., Трубанева Н.Н. // Иностранные языки в школе, 2010, №5., с.6-11.
16. Власенко В.А. Оценка: цена и ценность… / Власенко В.А. // Народное образование. 2012, №5, с.208-213.
17. Гальскова Н.Д. Языковой портфель как инструмент оценки в области изучения иностранного языка // Иностранные языки в школе. 2000, №5, с.6.
18. Ковалева Г.С. Оценка знаний и умений // Школьные технологии. 2002, №6, с.203.
19. Конышева А.В. Контроль результатов обучения иностранному языку. СПб: КАРО, Мн.: Изд. «Четыре четверти», 2004, 144 с.
20. Лебедев О.Е. Оценивание образовательных достижений учащихся. Народное образование. 2012, №10, с.207-216.
21. Пинская М.А. Формурующее оценивание в классе: практическое руководство для учителя. М.: Логос, 2010, 264 с.
22. Полуянов Ю.А. Формирование оценки на начальном этапе учебной деятельности // Начальная школа. 1999, №7, с.77-79.
23. Сергеева В.П. Современные средства оценивания результатов обучения. Уч.пособие. М.: АПК, 2005, 116 с.
24. Сиренко С.Н. Место тестирования в системе методов контроля и оценки знаний. Школьные технологии. 2011, №2, с.171-177.

25. Фомина Ж.В. Система оценивания знаний учащихся / Фомина Ж.В. // Иностранные языки в школе. 2010, №10, с.43-45.
26. Цветкова З.М. Некоторые вопросы контроля и учета / Цветкова З.М. // Иностранные языки в школе. 2011, №4, с.3-8.

c) **İngilis dilində:**

27. Bachman L.F. Fundamental Considerations in Language Teaching. Oxford University Press. 1990. 408 p.
28. Black P. and Wiliam D. “Assessment and Classroom Learning” Assessment in Education: Principles, Policy and Practice, CARFAX, Oxfordshire, Vol.5. No.1., pp.7-74, 2013.
29. Brown H.Douglas. Principles of Language Learning and Teaching. 4th ed. Longman, 2004, 352 p.
30. Brumfit Ch. Communicative Methodology in Language Teaching. Cambridge University Press, 1992, 166 p.
31. Chamot U.A., J.Robbins. The Learning Strategies. Handbook Longman, 1999, 249 p.
32. Crooks T.I. “The Empact of Classroom Evaluation Practices on Students:, Review of Educational Research, No.58, pp.438-481, 2000.
33. Harmer J. The Practice of English Language Teaching. 4th ed. Pearson Education Limited, 2008, 448 p.
34. Harmer J. How to teach English. Longman, 2004, 198 p.
35. Hattie J. and Timperley H. The Power of feedback. Review of Educational Research, 77, pp.81-112.
36. Maley A. Assessing Young Learnerts. Oxford, 2003.
37. Methodology in Language Teaching. An Anthology of Current Practice. Edited by J.Richards and W.Renandya. Cambridge University Press. 2003, 421 p.
38. McKay Penny. Assessing Young Language Learners. Cambridge University Press, 2006, 193 p.

39. Scriviner J. Learning Teaching. A guidebook for English teachers. Macmillan Publishers Limited. 4th ed. 2004. 218 p.
40. Ur Penny. A Course in Language Teaching. Practice and Theory. Cambridge University Press. 2004, 375 p.
41. Willis J. A Framework for Task-Based Learning. Longman. 7th ed. 2014, 182 p.

**İnternet saytlarından istifadə haqqında arayış**

42. “Language Assessment”. SIL International. February 2008. «http://www.sil.org./sosiolx/assessment.html»
43. “Self-assessment”, “wikipedia, the free encyclopedia. March 2008 «http://en.wikipedia.org./wiki/self-assessment»